

*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 074 (5794) **25 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Azərbaycan Avrasiya məkanında Çinin əsas tərəfdaşlarından biridir"

*Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin Pekində görüşü olub*

Səh 2



5

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Uydurma erməni soyqırımı: həqiqətlər və reallıqlar" mövzusunda tədbir keçirilib



4

"Çinlə əlaqələr getdikcə daha da dərinləşməkdədir"



4

Mübariz Qurbanlı: "Azərbaycanda heç vaxt dini və etnik müxtəlifliyə görə ayrı-seçkilik olmayıb"



# “Azərbaycan Avrasiya məkanında Çinin əsas tərəfdaşlarından biridir”

*Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin Pekində görüşü olub*



***Aprelin 24-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb. Dövlət başçıları birgə foto çəkdiriblər.***



### Çin Xalq Respublikasının sədri Si Cinpin:

-Cənab Prezident Əliyev, Sizi Pekində bir daha salamlayıram, qarşıdakı “Bir kəmər, bir yol” ikinci Beynəlxalq Əməkdaşlıq Forumuna xoş gəlmisiniz. Azərbaycan tərəfi və şəxsən Siz Çin-Azərbaycan münasibətlərinin inkişafına, “Bir kəmər, bir yol” təşəbbüsünün birlikdə reallaşdırılmasına böyük diqqət yetirirsiniz. Biz bunu yüksək qiymətləndiririk.

Azərbaycan Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir. Siz həm də “Bir kəmər, bir yol” layihəsinin reallaşdırılmasına ilk olaraq münasibət bildirənlərdən və bu işdə fəal iştirak edənlərdən birisiniz. Sizin ölkəniz Böyük İpək Yolu üzərində yerləşir və bu yolun bərpasında təbii tərəfdaşdır. Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir. Sizinlə birlikdə ortaq səylərimizlə “Bir kəmər, bir yol” layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram.

Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram. Çin Kommunist Partiyası da Yeni Azərbaycan Partiyası ilə əlaqələri fəallaşdırmağa, dövlət idarəçiliyi təcrübəsini mübadilə etməyə, iki ölkə arasında qarşılıqlı etimadı möhkəmlətməyə hazırdır.

X X X

### Prezident İlham Əliyev:

-Cənab Sədr, mənim ünvanıma söylədiyiniz və ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Mən Sizə, ilk növbədə, dəvətə görə təşəkkür etmək istərdim. Biz “Bir kəmər, bir yol” Forumunda iştirak etməyə dəvət olunmağımızı ölkəmizə xüsusi hörmət əlaməti, mənə münasibətdə dostluq əlaməti hesab edirik. Siz qeyd etdiniz ki, mən Sizin ölkənizin dostuyam, Azərbaycanda da Sizi Azərbaycanın xeyirxah dostu kimi tanıyırlar. Biz birgə səylərimizlə əməkdaşlığımızı irəliləd irik, bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən edirik.

Bu Forumun keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Siz qeyd etdiyiniz kimi, Azərbaycan lap əvvəldən Sizin təşəbbüsünüzü dəstəkləyib və bu layihəni bizim irəli sürdüyümüz təşəbbüslər çərçivəsində fəal irəlilədir. 2015-ci ildə Sizin ölkənizə dövlət səfərimi və burada mənə göstərilən qonaqpərvərliyi xatırlamaq istərdim. O vaxt Sizinlə biz “İpək Yolu İqtisadi Kəməri” haqqında Anlaşma Memorandumunu imzaladıq. Bu gün bizim siyasi münasibətlərimiz yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq.

X X X

Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu daxili və xarici siyasətinin həyata keçirildiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu bildirdi. O, Çinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəklədiyini vurğuladı. Si Cinpin “Bir kəmər, bir yol” layihəsi çərçivəsində Trans-Xəzər nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycanın “Vahid Çin” siyasətini ardıcıl surətdə dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı Çinin bütün sahələrdə əldə etdiyi böyük uğurlarla bağlı təbriklərini çatdırdı.

Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpini ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

# “Azərbaycan və Çin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləyir”

## *Prezident İlham Əliyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Van Yanla görüşüb*





***Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşüb.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Van Yan Azərbaycan Prezidentinin Çinə səfərinin ikitərəfli əlaqələrimizə töhfə verdiyini bildirdi. “Bir kəmər, bir yol” layihəsinin hərtərəfli əməkdaşlığı ehtiva edən geniş ictimai platforma olduğunu deyən Van Yan Azərbaycanın və Çinin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyini vurğuladı. Qeyd etdi ki, ölkələrimiz birgə səylərlə siyasi, iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığı daha da inkişaf etdirməlidir. Prezident İlham Əliyev ölkələrimiz arasında bütün istiqamətlərdə əməkdaşlığın inkişafında müsbət dinamikanın olduğunu bildirdi. Azərbaycanın Çin dövləti başçısının təşəbbüskarı olduğu “Bir kəmər, bir yol” layihəsinə mühüm əhəmiyyət verdiyini, bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən olduğunu qeyd etdi. Bildirdi ki, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasına xüsusi önəm verilir. Prezident İlham Əliyev ikinci “Bir kəmər, bir yol” Beynəlxalq Forumuna dəvətə görə təşəkkür etdi, bunu Azərbaycana olan hörmətin və dostluğun nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı bu səfərinin Azərbaycanla Çin arasında əməkdaşlığın inkişafına ciddi təkan verəcəyini bildirdi.

Söhbət zamanı Çin-Azərbaycan münasibətlərinin və iqtisadi sahədə əməkdaşlığın inkişafı, ticarət dövriyyəsinin artırılması, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, investisiya qoyuluşu və digər məsələlər müzakirə olundu.

## “Azərbaycan Çinin böyük şirkətlərinin ölkəmizdə fəal iş görmələrində maraqlıdır”

### *Azərbaycan Prezidenti İlham Əliyev Pekində bir sıra mühüm görüşlər keçirib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci “Bir kəmər, bir yol” beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gəlib. Pekin şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi Çinin xarici işlər nazirinin müavini Can Hanhuy və digər rəsmi şəxslər qarşıladılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində “ZTE” Korporasiyasının sədri Li Cisue ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, “ZTE” Korporasiyasının sədri Li Cisue onun rəhbərlik etdiyi şirkətin dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından biri olduğunu bildirdi. Çində və xaricdə çoxlu tərəfdaşlarının olduğunu deyən Li Cisue Azərbaycan bazarında da gözəl əməkdaşlıq nümunələrinin mövcudluğunu vurğuladı və ölkəmizlə tərəfdaşlıq əlaqələrini gücləndirmək istədiklərini bildirdi. Prezident İlham Əliyev bu əməkdaşlığın uğurlu olacağına ümid etdiyini bildirdi. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafının Azərbaycanda prioritet sahələrdən olduğunu deyən dövlətimizin başçısı son illərdə bu sektorun inkişafı üçün xeyli işin görüldüyünü, bu sahəyə investisiyaların yatırıldığını, xarici tərəfdaşlarla əlaqələrin genişləndiyini dedi. Prezident İlham Əliyev “ZTE” Korporasiyası ilə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində “CETC” Korporasiyasının baş direktoru Vu Mançin ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Vu Mançin “CETC” Korporasiyasının Çinin radioelektronika sahəsində ixtisaslı şirkətlərindən olduğunu deyərək, bu sahədə uzun illərdir uğurla fəaliyyət göstərdiklərini bildirdi. O, bu sahədə Azərbaycan ilə əməkdaşlıq qurduqlarını və bundan məmnun qaldıqlarını vurğuladı, əlaqələrin inkişaf etdiyini bildirdi. Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcud olduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Çinin böyük şirkətlərinin ölkəmizdə fəal iş görmələrində maraqlıdır. Dövlətimizin başçısı artıq Çinin bir çox şirkətlərinin timsalında yaxşı tərəfdaşlığın yarandığını bildirdi və Azərbaycanda xarici şirkətlər üçün geniş fəaliyyət sahəsinin olduğunu qeyd etdi.

# "Çinlə münasibətlər möhkəm təməl üzərində qurulub"

"Hesab edirəm ki, Azərbaycan-Çin münasibətləri kifayət qədər möhkəm təməl üzərində qurulub. Bu əməkdaşlığı dostluq, tərəfdaşlıq kimi xarakterizə etmək mümkündür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iki dəfə Çin Xalq Respublikasına rəsmi səfər edib". Bunu SİA-ya açıqlamasında Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov deyib.



YAP-ın Sədr müavinin sözlərinə görə, Çin tərəfi ilə Azərbaycan hökumətinin, dövlətinin arasında əməkdaşlığın möhkəmlənməsi ilə bağlı çox vacib sənədlər imzalanıb: "Hesab edirəm ki, bizim münasibətlərimiz siyasi cəhətdən kifayət qədər etibarlıdır və yüksək səviyyədə özünün təzahürünü tapıb. Çin tərəfi dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyini ifadə edib. Təbii ki, Azərbaycan da vahidçi ideyasını dəstəklədiyini açıq şəkildə bəyan edir. Çinlə iqtisadi cəhətdən əməkdaşlığımız genişlənir. Azərbaycan iqtisadiyyatında Çinin müxtəlif kampaniyaları iştirak edirlər. Güman edirəm ki, gələcəkdə bu istiqamətdə bizim səylərimiz daha da genişlənəcək. Eyni zamanda Çin və Azərbaycan arasında əməkdaşlığın bir konkret təzahür forması var ki, bu da qədim İpək Yolunun bərpa edilməsi ilə əlaqədar aparılan işlər çərçivəsində reallaşır.

Bu gün cənab Prezidentin Çinə səfəri də Çin lideri tərəfindən ortaya atılmış və reallaşdırılan 2-ci "Bir kəmər, bir yol" layihəsi üzrə keçirilən böyük beynəlxalq konfransda iştirakla bağlıdır. Bu layihənin həyata keçirilməsində bu və ya digər formada iştirak edən dövlətlər həmin konfransda təmsil olunurlar. Təbii ki, Azərbaycan da həmin layihənin həyata keçirilməsində yaxından iştirak edir. Bu mənada Azərbaycan Prezidenti də həmin konfransda Azərbaycanı təmsil edir. Beləliklə hesab edirəm ki, dünyanın ən böyük iqtisadi qüdrətli dövlətlərindən biri olan Çinlə Azərbaycanın əməkdaşlığı hər iki ölkənin xalqlarının mənafeylərinə tamamilə uyğun gəlir. Belə hesab edirəm ki, kifayət qədər ciddi əsaslar mövcuddur ki, bu əməkdaşlıq daha da genişlənsin və inkişaf etsin".

## "Çinlə əlaqələr getdikcə daha da dərinləşməkdədir"



"Ümumiyyətlə, Çin Xalq Respublikasının son qurultayından sonra qəbul etdiyi "Bir kəmər, bir yol" siyasəti Azərbaycanda da dəstəklənir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavininin sözlərinə görə, bu gün Azərbaycanla Çin arasında çox geniş əlaqələr mövcuddur: "İki ölkə arasında iqtisadi, siyasi, nəqliyyat sahəsində əlaqələr vardır və digər görüşlər mövcuddur. Təbii ki, bu əlaqələr getdikcə daha da dərinləşməkdədir. Nəticədə Azərbaycan-Çin münasibətləri ən yüksələn nöqtədədir. Hesab edirəm ki, cənab Prezidentin Çinə səfəri və bundan öncə də dəfələrlə hökumət nümayəndələrinin səfərləri olub. İqtisadi layihələrin həyata keçirilməsində birgə əməkdaşlıq çox vacibdir. Çinin sonuncu qurultayından sonra Çin tərəfi ilk dəfə olaraq qurultayın nəticələrinə uyğun olaraq məhz Azərbaycanda layihələr həyata keçirməyə qərar verdi. Bu bir daha Çin-Azərbaycan yaxınlığına sübutdur".

***Ceyhun Rasimoğlu***

# Mübariz Qurbanlı: "Azərbaycanda heç vaxt dini və etnik müxtəlifliyə görə ayrı-seçkilik olmayıb"

## *Ağcabədidə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb*

Aprelin 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağcabədi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb.



Ağcabədi rayon Mədəniyyət Mərkəzində keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağcabədi Rayon İcra Hakimiyyətinin rəhbər işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak ediblər.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, regional konfransda Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov çıxış edərək, ölkəmizdə həyata keçirilən nümunəvi dövlət-din siyasətindən, milli-mənəvi dəyərlərin, tolerantlıq mühitinin qorunub saxlanılmasından söz açıb. Bildirib ki, respublikamızın digər bölgələrində olduğu kimi, Ağcabədi rayonunda da dini etiqad azadlığının təmin edilməsi, milli-mənəvi dəyərlərin təbliği istiqamətində xeyli iş görülüb, rayonda dini durum sabitdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural prinsiplərimizin təşviqi, dini maarifçilik işinin aparılması və dini radikalizmlə mübarizə sahəsində aparılan işlər barədə danışıb.

Müasir dünya üçün ən ciddi təhdidlərdən birinin terror və ekstremizm olduğunu bildirən Komitə sədri dünyanın bir çox ölkələrində din amilindən istifadənin vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxardığını deyib. Diqqətə çatdırıb ki, hazırda dinlər və sivilizasiyalar arasında toqquşmalar XX əsrdə soyuq müharibə illərindəki ideoloji toqquşmanı əvəz edib.

Bildirilib ki, heç bir din radikallığa çağırış edə bilməz. Həm İslamın, həm də Xristianlığın və Yəhudiliyin müqəddəs kitablarında insanlar birliyə, sülhə, əmin-amanlığa çağırılır. Amma bu gün dünyada din adı altında terrorlar törədilir, qarşıdurmalar yaradılır. İnsanların din adı ilə bir-birini qırması, terrorlar törətməsi cəhalətin nəticəsidir. Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərindən söz açan Mübariz Qurbanlı bu modelin dünyada rəğbətlə qarşılandığını deyib. "Azərbaycanda heç vaxt dini və etnik müxtəlifliyə görə ayrı-seçkilik olmayıb. Bütün dinlərin nümayəndələri bir yerdə mehriban şəkildə yaşayır, sərbəst şəkildə öz inanclarını yerinə yetirirlər. Eyni zamanda, İslam dini daxilində də məzhəb ayrı-seçkiliyinin əleyhinəyik. Dini siyasiləşdirmək, dindən sui-istifadə etmək istəyənlərə, məzhəb ayrı-seçkiliyi salanlara aramızda yer olmamalıdır", - deyə M.Qurbanlı vurğulayıb.

Dini maarifləndirmənin vacibliyindən danışan Komitə sədri deyib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Burada yüksəkixtisaslı, azərbaycançılıq ideyasının daşıyıcısı olan, islami dəyərləri, o cümlədən digər dinləri mükəmməl bilən kadrlar yetişəcək və gələcəkdə din sahəsində çalışacaqlar. M.Qurbanlı diqqətə çatdırıb ki, gənclərimizin maarifləndirilməsi, məlumatlandırılması məqsədilə yeni tədris ilindən ali məktəblərdə "Multikulturalizmə giriş" adlı fənn tədris olunacaq. O, eləcə də orta ümumtəhsil məktəblərində "Həyat bilgisi" fənninin proqramının genişləndirilməsi, İslam dini ilə bərabər digər dinlər haqqında da məlumatların verilməsinin əhəmiyyətinə toxunub. Sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Hacı Ramazan Hüseynov regionlarda keçirilən bu cür konfransların əhəmiyyətini yüksək qiymətləndirib. Konfrans işini aprelin 25-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# Prezidentin Sərəncamı 9300-dən çox şəxsə şamil olunacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2019-cu il 23 aprel tarixli Sərəncamı qeyd olunan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının növbəti göstəricisidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, Sərəncam ümumilikdə 9300-dən çox vətəndaşa şamil olunacaq. Onlardan 400-dən artıq vətəndaş 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərdir ki, onların hər birinə 1000 (min) manat məbləğində birdəfəlik maddi yardım ödəniləcək.

Qalan şəxslər isə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarıdır. Sərəncamla onların hər birinə 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilməsi təmin olunacaq.

Sərəncamla birdəfəlik maddi yardımların ödənilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,0 (beş) milyon manat ayrılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sərəncamın icrası təmin edilməklə, birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

# Yeni Azərbaycan Partiyasının təçkilatçılığı ilə "Uydurma erməni soyqırımı: həqiqətlər və reallıqlar" mövzusunda tədbir keçirilib

***Dünən Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında "Uydurma erməni soyqırımı: həqiqətlər və reallıqlar" adlı tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi Əli Əhmədov, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Milli Məclisin vitse-spikeri Bahar Muradova, deputatlar, tarixçilər və digər qonaqlar iştirak ediblər.***

YAP-ın sədr müavini Əli Əhmədov tədbiri giriş sözü ilə açaraq deyib ki, 100 ildən çoxdur ki, bəşəriyyət tarixi bir yalanla üz-üzədir: "Bu, qondarma "erməni soyqırımı"dır. Bunu yalnız yalan və uydurma sahəsində xüsusi təcrübəsi olanlar edə bilər. Bu yalanın 100 ildən çox davam etməsi onu göstərir ki, məkrli, iyrənc məqsədlərə xidmət edir. Qondarma "erməni soyqırımı"nı sübuta yetirən heç bir fakt yoxdur. Bu yalan həm də ermənilərin qardaş Türkiyəyə və Azərbaycana qarşı ərazi iddiaları irəli sürmək məqsədi ilə bağlıdır. Digər tərəfdən isə Türkiyəyə siyasi təzyiqlərin göstərilməsi, müəyyən hallarda Azərbaycana qarşı bu yalandan istifadə edilməsi ilə bağlıdır. Bu yalana qarşı qoyulmalı olan həqiqətlər isə 100 ildən çoxdur unudulur və bu barədə danışmaq istəmirlər".

Baş nazirin müavini əlavə edib ki, Türkiyənin müxtəlif bölgələrində, Azərbaycanda ermənilər tərəfindən qırğınların törədilməsi, əhalinin kütləvi şəkildə qətlə yetirilməsi, etnik təmizləmə siyasətinin həyata keçirilməsi bu həqiqətin bir hissəsidir: "Nəhayət, Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi, bir milyondan artıq insanın etnik təmizləməyə məruz qalması bəşəriyyətin susduğu, haqqında danışmaq istəmədiyi reallıqlardandır".

Ə.Əhmədov vurğulayıb ki, Türkiyə və Azərbaycanın qarşısında duran əsas vəzifə erməni yalanlarını dünyaya çatdırmaq üçün birgə işlər görməkdir.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bildirib ki, həqiqətin öz yerini tapmasının artıq vaxtıdır: "Türk millətinin tarixində heç bir zaman utanılacaq hadisə baş verməyib. Qondarma "erməni soyqırımı"nın dünyaya yaymağa çalışılması tarixə qarşı ədalətsizlikdir. Biz bu yalanı dünyaya yaymağa çalışanları, bununla bağlı haqsız mövqe tutanları qınayırıq. Bu, əslində dünyanın keçmişinə, həqiqətə, ədalətə qarşı edilən haqsızlıqdır. Biz həqiqətləri ortaya çıxarırıq. Bu həqiqətlər üzə çıxdıqca erməni yalanları da üzə çıxır. Azərbaycanda ermənilər tərəfindən törədilən qətliamlar dünyanın gözü qarşısında baş verib. Bu qətliamı törədənlər Ermənistanda qəhrəman elan ediliblər. Bu, dünyanın ən böyük haqsızlığıdır".

E.Özoralın sözlərinə görə, bəzi dünya ölkələrinin qondarma "erməni soyqırımını" gündəmə gətirməsi haqsızlıqdır: "Qoy tarixçilər bunu araşdırsınlar. Biz Türkiyə olaraq arxivləri açmışıq, istənilən şəxs gəlib arxivlərdə araşdırma apara bilər. Ancaq ermənilərin arxivləri bağlı saxlanılır. Bu günə qədər 34 türk dilomatı ASALA terror təşkilatı tərəfindən qətlə yetirilib, Xocalıda günahsız insanlar ermənilər tərəfindən öldürülüb. Bunların hesabı verilməlidir, günahkarlar cəzalarını çəkməlidirlər".

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudov ermənilərə qarşı soyqırımı törədilməsi ilə bağlı dünyada heç bir sübut olmadığını vurğulayıb: "Ancaq bu gün Şərqi Anadoluda, Azərbaycanın müxtəlif ərazilərində kütləvi məzarlıqlar var. Özbəkistanda belə daşnaklar türklərə qarşı soyqırımı törədiblər. Ermənilər sonuncu dəfə Balkan yarımadasında yaşayıb, Bizans imperiyasına keçiblər. Bizansa xəyanət etdikdən sonra İrana gəlib, Armeniya adlı ərazidə yaşayıb, adlarını da buradan götürüblər. Ermənilər Kiçik Asiyanın qədim etnosu deyillər. Ermənilər Urmiya ətrafında 500 minə qədər azərbaycanlını qətlə yetiriblər. Yəni Şərqi Anadoluda etdikləri əməlləri Cənubi Azərbaycanda da ediblər. Naxçıvanda da qanlı əməllər törədiblər. Amma Naxçıvanda əhali birləşib, müqavimət göstərib, öz dövlətlərini yaradıblar. Bu gün də dünyada erməni terror təşkilatları var".







Y.Mahmudov 26 Bakı komissarlarının Bakıdakı məzarı açılan zaman məhkəmə-tibbi ekspertiza nəticəsində həmin məzarda orada Şaumyanın olmadığının üzə çıxdığını xatırladıb: "Azərbaycan Kommunist Partiyası da daşnak özəkləri əsasında yaradılmışdı. Şaumyan partiyaya müsəlmanların qəbul edilməsinə imkan vermirdi, Nəriman Nərimanov bunun üzərini açdı. Bakıda qətliam törədilən zaman Şaumyan Leninə teleqramında yazıb ki, daşnakların qüvvələrindən istifadə edilib, əks halda Bakı azərbaycanlıların paytaxtı olacaqdı. Bir məqamı da xatırladım. Osmanlı imperiyası xəyanət edən erməniləri ona görə Şərqi Anadoludan köçürülüb ki, Rusiya ilə müharibədə manealər olmasın. Şərqi Anadoludan 500-600 min erməni köçürülüb, 2-2,5 milyon erməninin öldürüldüyü haradan çıxdı? Serj Sərkisyan və Robert Köçəryan tək Xocalıda deyil, Dağlıq Qarabağın digər bölgələrində soyqırımlarda iştirak etdiklərini etiraf edirlər".

Millət vəkili Fəzail Ağamalı Deportasiya və Soyqırımı Araşdırma Mərkəzinin yaradılmasını təklif edib. O, 1989-cu il dekabrın 5-nin Qərbi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunmasını təklif edib. F. Ağamalı həmin tarixdə artıq Ermənistan adlandırılan Qərbi Azərbaycan ərazisində 1 azərbaycanlının belə qalmadığını xatırladıb.

Demokrat İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə Azərbaycana qarşı aparılan müharibənin məqsədinin etnik təmizləmə olduğunu vurğulayıb: "Çar Rusiyasının kəşfiyyatı tərəfindən ilk erməni terror təşkilatları 19-cu əsrin ortalarında Tbilisidə yaradılıb. Bu gün Qarabağı Azərbaycandan ayırmaq üçün bizim vəhşi obrazımızı yaratmağa, ermənilərlə bir yerdə yaşamağın mümkün olmadığını təlqin etməyə çalışırlar. Məsələn, Kosovanın müstəqilliyini məhz serblərlə birgə yaşayışın mümkün olmadığını əsas gətirərək tanıyıblar. Bir neçə gün əvvəl Fransa prezidenti Makron qondarma "erməni soyqırımı" ilə bağlı qərar qəbul etdi. Bunun arxasında "sarı jiletlilər" hərəkatının rəhbərliyində əslən erməni olan müavinin olması durur. Almaniyada 40-50 min erməni, ancaq 2 milyona qədər türk yaşayır. Ancaq Bundestaqa qondarma "erməni soyqırımı" ilə bağlı saysız əsərlər təqdim edilib, biz türklər isə komanda kimi hərəkət etmirik".

Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa hakim partiyanın təşəbbüsü ilə qondarma erməni soyqırımı ilə bağlı siyasi partiyaların iştirakı ilə tədbir keçirilməsini yüksək qiymətləndirib: "1918-ci il və sonrakı hadisələrdə niyə daşnaklar silahlı olur, 6-7 diviziyası olub, bizim olmayıb? Biz bunun üzərində düşünməliyik. Əhməd Ağaoğlunun rəhbərliyi ilə yaradılan Difai hərəkatı ermənilərin törətdiyi soyqırımların qarşısını almaq üçün yaradılıb. Diaspor təşkilatlarımız hər şeyi dövlətdən gözləyir, erməni diaspor təşkilatları isə Ermənistan dövlətinə kömək edir. Bu gün Türkiyədə qondarma "erməni soyqırımı" ilə bağlı məsələlərə xüsusi diqqət yetirilməsinə, bu yöndə işlərin daha aktiv aparılmasına ehtiyac var. Nuru Paşanın adına təqaüdlər təsis etməliyik ki, bu millətin müqavimət ruhu daim olsun".

Millət vəkili Rauf Əliyev deyib ki, Ermənistan dünya erməni diasporunun dəstəyi ilə dünya ictimaiyyətini öz yalanlarına inandırmaq üçün hər cür vasitələrə əl atırlar: "Ancaq son illər möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi ilə aparılan müdrik daxili və xarici siyasət, Azərbaycanın Beynəlxalq aləmdə artan nüfuzu ermənilərə qarşı aparılan informasiya müharibəsinin genişləndirilməsinə və gücləndirilməsinə şərait yaratmışdır. Artıq bu sahədə Azərbaycan tədricən üstünlüyə nail olur. İnanırıq ki, ermənilərin Dağlıq Qarabağ məsələsi ətrafında apardığı təcavüzkar, işğalçı siyasəti tezliklə iflasa uğrayacaq və haqq-ədalət qalib gələcək. Bunun üçün hər bir azərbaycanlı tutduğu vəzifədən, dünyanın harasında yaşamağından asılı olmayaraq Qarabağ həqiqətlərini bütün dünyaya çatdırmalıdırlar. Əsl mühribədə qalib gəlməkdən öncə informasiya müharibəsində qalibiyyəti təmin etməliyik".

YAP İdarə Heyətinin üzvü Kərim Kərimov isə diqqətə çatdırıb ki, 100 ildən artıqdır ki, ermənilər hər il aprelin 24-də öz xəyanətkar əməllərini ört-basdır etmək üçün "erməni soyqırımı" cəfəngiyatı ilə Osmanlı İmperiyasını ittiham edərək hay-küy kampaniyası aparırlar: "Əslində aprelin 24-də Osmanlı dövləti ərazisində bir erməni belə qətlə yetirilməyib. Sadəcə olaraq ölkədə cinayətkar fəaliyyətinə görə "Daşnak" və "Hnçak" partiyalarının rəhbərləri həbs olunub. Tarixi faktlar, arxiv materialları da sübut edir ki, həmin şəxslər yalnız həbs olunublar. Ermənilərin bəhs etdiyi köçürülmə hadisəsi də bu tarixə təsadüf etmir". Tədbirə müzakirələrlə yekun vurulub.

***Ceyhun Rasimoğlu***

# Azərbaycan dünyanın ən islahatçı ölkəsidir

## *"Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb*

***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım təmin olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Bunun nəticəsidir ki, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyi ilbəil yaxşılaşır. Belə ki, Dünya Bankının hazırladığı "Doing Business" hesabatında Azərbaycan dünyanın 90 ölkəsi arasında 25-ci yerə layiq görülüb və ən islahatçı ölkə elan olunub. Azərbaycanın növbəti ildə də "ən islahatçı ölkə" statusunu qoruyacağı proqnozlaşdırılır. Bu fikirləri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Doing Business 2020"yə dair islahat icmalının təqdimatında bu barədə məlumat verilib.***

"Doing Business 2020"-ə dair islahat icmalında 11 indikator üzrə mövcud olan və daha sonra dəyişdirilən, sadələşdirilən prosedurlar haqqında ətraflı məlumat təqdim edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, son bir il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurlu islahatlar həyata keçirilib. Biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, yaşıl dəhliz, elektron məhkəmə, elektron satınalma, tikintidə bir pəncərə, biznesə başlama, elektrikə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm islahatlar aparılıb. Bu səbəbdən Azərbaycanın növbəti ildə də "ən islahatçı ölkə" statusunu qoruyacağı proqnozlaşdırılır.

Qeyd edək ki, Dünya Bankı tərəfindən hazırlanan bu hesabatlarda Azərbaycan hər dəfə irəliyə doğru inamla yüksəlir. Əgər 2016-cı ildə Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında Azərbaycan 65-ci pillədə qərarlaşmışdısa, "Doing Business 2018" hesabatında 8 pillə yüksələrək, 57-ci yerə qalxmışdı. 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən, Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılırdı. Məhz Prezident İlham Əliyevin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar Azərbaycanın "Doing Business 2019" hesabatında yeni rekorda imza atması ilə nəticələnib.




Son 15+1 ildə əldə olunan nailiyyətlər, ölkə Prezidentinin söylədiyi kimi: "Son 15 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib". Bu Prezident İlham Əliyevin düşünülmüş siyasətinin real nəticəsidir. Son 16 il ərzində Azərbaycanın iqtisadiyyatı 3 dəfə artıb və bu, inkişafımızın əsasında dayanan fundamental və ciddi amildir. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir".

### "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

Prezident İlham Əliyev bütün çıxışlarında Azərbaycan vətəndaşına daima diqqət və qayğı göstərildiyini söyləyir. Elə aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında sakinlərlə görüşü zamanı dövlət başçısı bir daha bildirib ki, həyata keçirilən uğurlu inkişaf Azərbaycan vətəndaşının rifah halının yaxşılaşmasına xidmət edir: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və çox çalışırıq ki, hər bir yerdə inkişaf olsun, quruculuq, abadlıq işləri aparılsın".

Dövlət başçısı onu da bildirib ki, ölkəmizdə 15 min kilometr yol çəkilib: "Bu gün bu yollar həm insanlara xidmət göstərir, həm biznes imkanlarını genişləndirir, fermerlər üçün yeni imkanlar yaradır və yollar keyfiyyətli salınır. Çünki Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycanda yolların keyfiyyəti dünya miqyasında 34-cü yerdədir. Biz çalışırıq ki, hər bir sahədə ən yüksək standartları tətbiq edək və insanları narahat edən problemləri aradan götürək".

### Verilən vədlər, görülən işlər...

Görüşdə Prezident İlham Əliyev bir daha vurğulayıb ki, bundan sonra da doğma xalqına daha çox diqqət yetirəcək: "Mən çalışıram və bundan sonra da çalışacağam ki, doğma xalqıma ləyaqətlə xidmət edim. Ölkə qarşısında duran bütün problemlər öz həllini tapmalıdır. Son illər ərzində görülmüş işlər göz qabağındadır. Azərbaycan müasirləşir, yeniləşir, hər bir yerdə, hər bir bölgədə və hər bir sahədə çox böyük quruculuq, abadlıq işləri aparılır".

Dövlət başçısı əldə olunan uğurların əsas səbəbi aparılan islahatlar nəticəsində həyata keçirildiyini deyib: "Ona görə islahatların dərinləşməsi nəticəsində əldə edilmiş nailiyyətlər əlbəttə ki, vətəndaşların rifah halını yaxşılaşdırır. Baxın, bu ilin üç ayında büdcə daxilolmaları böyük dərəcədə artıb. Yəni, vergi və gömrük orqanları plandan əlavə 200 milyon manatdan çox vəsait toplayıblar. Nəyin hesabına? İslahatlar hesabına. Nəyin hesabına? Şəffaflıq hesabına, aparılmış siyasət nəticəsində. Sahibkarlar da razıdır, çünki bu gün sahibkar da bilir ki, dövlətin vergisini ödəməlidir, tam ödəməlidir və ondan başqa heç kimə heç bir ödəniş edilməməlidir... İndiki şəraitdə biz vəsaiti daha çox insanların rifah halının yaxşılaşdırılması üçün yönəldirik. Təsadüfi deyil ki, keçən ilin aprel ayında prezident seçkilərindən sonra imzaladığım ilk Fərman şəhid ailələrinin rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir. Şəhid ailələrinə 11 min manat ödənişin təşkil edilməsi bizim niyyətimizi göstərir və bu ödənişlər aparılır. Ondan sonra qəbul edilmiş qərarlar, imzaladığım fərmanlar da bir məqsədi güdür ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. Minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz artırılıb. Mən bu yaxınlarda demişəm, artım faiz baxımından böyük olsa da, bizi qane edə bilməz. Çünki biz daha da yüksək həddə çatmalıyıq və bunu etmək üçün daha da fəal işləməliyik. Sosial müavinətlər orta hesabla iki dəfə, köçkünlərə, şəhid ailələrinə verilən müavinət, tələbə təqaüdləri 50 faiz artıb. Bir çox önəmli fərman və sərəncamlar imzalanmışdır ki, insanların rifah halını, biznes mühitini yaxşılaşdırırıq və bu istiqamətdə işlər davam etdiriləcək. Çünki minimum əməkhaqqı, minimum pensiyanın qaldırılması daimi proses olmalıdır. Azərbaycan indi inkişafın yeni mərhələsindədir və bundan sonra iqtisadi artım çox sürətli olacaq... Əlbəttə ki, islahatlar hərtərəfli olmalıdır - həm iqtisadi sahədə, sosial sahədə, siyasi sahədə, həm də idarəetmə sahəsində".

Bir sözlə, göründüyü kimi, milli iqtisadiyyatın əsas inkişaf istiqamətlərini müəyyənləşdirən müstəqil Azərbaycan dünya düzənində özünəməxsus mövqeyini daim möhkəmləndirir. Ümumiyyətlə, çox doğru olaraq, Azərbaycan iqtisadiyyatı inklüziv iqtisadiyyat kimi səciyyələndirilir. Başqa sözlə desək, Prezident İlham Əliyevin nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq, ölkəmizdə güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır. Həyata keçirilən uğurlu iqtisadi islahatlar, reallaşan sosial-iqtisadi layihələr, onu deməyə əsas verir ki, Azərbaycan daim liderliyini qoruyub-saxlayacaq.

**RƏFİQƏ KAMALQIZI**



# YAP Samux rayon təşkilatının gənclər birliyinin III konfransı keçirilib

Dünən YAP Samux rayon təşkilatının gənclər birliyinin III konfransı keçirilib. Tədbir iştirakçıları ilk öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül-çiçək dəstələri düzüblər.

Dövlət himni səsələndikdən sonra konfransı giriş sözü ilə YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov açaraq Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də, ictimai həyatında gənclərin uğurlarından, YAP Gənclər Birliyinin yaranma tarixindən və onun nailiyyətlərindən danışıb.

YAP Samux rayon təşkilatının gənclər birliyinin sədri Arif Ağayev hesabat məruzəsi ilə çıxış edərək ötən konfransdan bəri görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.



Daha sonra məruzə ətrafında çıxış edən gənc partiya fəallarından Nuridə Həsənova, Ülviyyə Salmanova və Rasim İmamquliyev ölkədə həyata keçirilən gənclər siyasətindən və Ulu Öndər Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı Azərbaycan xalqının, Azərbaycan gənclərinin sevimlisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildiriblər. Tədbirdə Milli Məclisin deputatı Naqif Həmzəyev çıxış edərək qeyd edib ki, gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur: "Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar". Konfransda YAP Samux rayon təşkilatının gənclər birliyinin 9 nəfərdən ibarət şura üzvləri, 5 nəfərdən ibarət idarə heyətinin üzvləri seçilib. Konfrans iştirakçıları səsvermə yolu ilə Qurban Həsənovu YAP Samux rayon təşkilatının gənclər birliyinin sədri və Rəşid Şabanovu isə sədr müavini seçiblər. Həmçinin, yeni sədr və müavin həm də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin konfransına nümayəndə seçiliblər.

Sonda konfrans iştirakçıları adından Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

**RƏFİQƏ HÜSEYNOVA**

# YAP Qusar rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.




Daha sonra rayonun Heydər Əliyev Mərkəzində konfrans öz işini davam etdirib.



Yeni Azərbaycan Partiyası Siyasi Şuranın üzvü, rayon təşkilatının sədri David İbramxəlilov konfransda çıxış edərək ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən, gənclər üçün yaradılan əlverişli şəraitdən danışıb. Bildirib ki, Azərbaycanda dövlət gənclər siyasətinin təşəkkülü və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır: "Ulu Öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində gənclərə həmişə böyük qayğı göstərib, onların hərtərəfli inkişafına xüsusi diqqət yetirib".

Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatı gənclər birliyinin sədri Zeynal Əsgərov IV konfransdan ötən müddət ərzində görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni həyatında gənclərin uğurlarından danışıb.

Yeni Azərbaycan Partiyası Siyasi Şuranın üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində gənclərimizin qazandıqları nailiyyətlərdən danışıb. Müasir dövrümüzdə dövlət-gənclər siyasətinin ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşadığını bildirərək, Azərbaycan gəncliyinin ölkənin ictimai-siyasi, həmçinin, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərdiyini, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə töhfələrini verdiklərini diqqətə çatdırıb.

Milli Məclisin deputatı Azər Badamov və rayon icra hakimiyyəti başçısının müavini Elman Mustafayev çıxışlarında Azərbaycanın öz dinamik inkişafını təmin etdiyini və xalqımızın əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadığını bildiriblər.

Sonra təşkilati məsələlərə baxılıb. YAP Qusar rayon təşkilatı gənclər birliyi şurasının tərkibi müəyyənləşib. Səsvermə nəticəsində Nahid Hacıyev YAP Qusar rayon təşkilatı gənclər birliyinin sədri seçilib. YAP Gənclər birliyinin növbəti konfransına nümayəndələr seçilib. Konfransda partiya sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiya vəsiqələri və fəal gənclərə "Fəxri fərman"lar təqdim olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı qadınlar şurası görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümü münasibəti ilə tədbir keçirib.***



# YAP Səbail rayon təşkilatında görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anıldı



Tədbir iştirakçıları ilk öncə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Tədbiri giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyev görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolundan danışıb: "1985-ci ilin bahar günündə dünyasını dəyişən, parlaq amalların, nəcib duyğuların, tükənməz həyat eşqinin təcəssüm tapdığı bir ömür yaşayan Zərifə xanım Əliyevanın nurlu xatirəsi qədirbilən xalqımız tərəfindən hər il ehtiramla anılır. Zərifə xanım Əliyeva Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Vaxtilə, Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. O, Ulu Öndər Heydər Əliyevə mənəvi dayaq, arxa olmuşdur. Akademik Zərifə xanım Əliyevanın fitri istedada malik novator alim, pak və nəcib bir insan kimi yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir".

Tədbirdə YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, ali dərəcəli həkim, Zərifə Quliyeva çıxış edərək görkəmli alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən söz açaraq bildirib ki, Zərifə xanım Əliyeva müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin, Ümummilli Lider Heydər Əliyevin həm vəfalı ömür-gün yoldaşı, həm də sədaqətli dostu, etibarlı silahdaşı olmuşdur: "Zərifə xanım Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin anasıdır. Bu gün dövlət başçısı İlham Əliyev xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadır".

Tədbirdə YAP Səbail rayon təşkilatı qadınlar şurasının sədri Təranə Kərimova akademik Zərifə xanım Əliyevanın oftalmologiya elminin inkişafındakı xidmətlərindən danışıb.

Tədbirdə professor, şair Paşa Qəlbinur, millət vəkili Hadı Rəcəbli və digərləri çıxış edərək bildiriblər ki, Zərifə xanım hər zaman nursuz gözlərə işıq paylamaq, füsunkar gözəlliyə həsrət qalan insanların gözlərinə həyat eşqini qaytarmaq arzusunda olub və Onun nurlu xatirəsi daim Azərbaycan xalqının qəlbində yaşayacaq.

***R.HÜSEYNOVA***

# "Azərbaycan-Çin münasibətləri ən yüksək səviyyədədir"

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri iki ölkə arasında münasibətlərin həm keçmişini, həm mövcud vəziyyətini, həm də gələcək perspektivlərini özündə əks etdirir". Bunu SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib.



Millət vəkilinin sözlərinə görə, bu gün iki ölkə arasında münasibətlər ən yüksək səviyyədədir: "Münasibətlərin inkişafında yeni mərhələni cənab Prezidentimiz bir neçə il əvvəlki səfəri müəyyənləşdirmişdir. Bizim Çinlə münasibətlərimizin təməl məsələlərindən biri ərazi bütövlüyü və suverenliyinin tanıdılmasıdır. Çin Xalq Respublikası Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə müdafiə edir. İki ölkə arasında ticarət, iqtisadi, diplomatik, siyasi, hərbi, humanitar və mədəni əməkdaşlıq inkişaf edir. Bu gün Azərbaycanda Çin dilini öyrədən mərkəzlər var və ayrı fakultələr mövcuddur. Eyni zamanda Çində də azərbaycanlı tələbələr təhsil alır. Hesab edirəm ki, qarşılıqlı münasibətlərin çox böyük gələcəyi var".

# Cəbhəçiləri portağal qabığı kimi soyan Əli Kərimli

## *Yaxud özünü azərbaycanlı, bu torpağın övladı hesab etməyən Vətən xaini haqqında*

***Bu, bir həqiqətdir ki, Azərbaycanın radikal müxalifəti xalqımızın, dövlətimizin əldə etdiyi uğurlara qarşı çıxmağı, bu uğurlara kölgə salmağı özü üçün "ənənəyə" çevirib. Onlar bu uğurlara nəinki sevinmir, hətta düşmən münasibəti bəsləyərək ölkəmizin əldə etdiyi nailiyyətlərə kölgə salmaq üçün bütün güclərini səfərbər edirlər. Hətta hər hansı ümumxalq, ümumdövlət məsələsində belə onlar dövlətin, xalqın marağını satmaqdan çəkinmir, düşmənlərlə eyni sırada dayanırlar. Bir sözlə, bəlli sifarişləri yerinə yetirən bu kəsim istər iqtisadi, istərsə də siyasi müstəvidə əldə olunan nailiyyətlərə mənfi don geyindirməklə məşğuldur. İqtisadi inkişafımız, dövlətimizin dünya siyasi palitrasında mühüm aktorlardan birinə, həmçinin dünyada tolerant, mədəni, sivilizasiyaların dialoq mərkəzi kimi nümunəyə çevrilməsi radikalların faktiki olaraq yuxusunu ərşə çəkib. Bu üzdən də onlar "əllərindən gələni əsirgəmir" və bütün vasitələrlə düşmən dəyirmanına su tökməkdə davam edirlər.***



**Vüqar Rəhimzadə, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist**

Təəssüflər olsun ki, Azərbaycanımızın uğurları, nailiyyətləri anti-Azərbaycan dairələri olduğu kimi, daxildəki "5-ci kolon"un nümayəndələrini də ciddi şəkildə narahat edir. Daxili bədxahlar hər zaman Azərbaycanın istənilən uğurlarına qısqanclıqla yanaşıb, ölkədə ictimai-siyasi sabitliyi pozmaq üçün məişət səviyyəsində olan problemləri şişirtməklə siyasi divident qazanmağa çalışıblar. Azərbaycan ictimaiyyəti qaragüruhçuların bədxah əməllərini "Eurovision", Birinci Bakı Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 zamanı açıq şəkildə görüblər. Adı çəkilən tədbirlərin iqtisadi, həmçinin siyasi baxımdan ölkəmiz üçün olduqca əhəmiyyətli olmasına baxmayaraq kvaziqruplar Azərbaycan cəmiyyətinin iradəsinin əksinə çıxmaqla xarici anti-Azərbaycan dairələrinin siyasi sifarişlərini həyata keçiriblər. Elə yaxın günlərdə start götürəcək Formula 1 yarışları ərəfəsində də Azərbaycan dövlətinin əleyhinə çirkin kampaniya başladıb və bununla da ölkəmizin imicinə zərbə vurmağa, avtoyarışın əhəmiyyətini azaltmağa səy göstərirlər.

Hər zaman olduğu kimi, bu çirkin kampaniyanın başında AXCP sədri Əli Kərimli dayanır. Bu, həmin Əli Kərimlidir ki, 1992-1993-cü illərdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsinə şərait yaratmış, ölkəni vətəndaş müharibəsi həddinə çatdırmış AXC-Müsavat hakimiyyəti dövründə dövlət katibi vəzifəsini daşıyırdı. Həmin illərdə Azərbaycanın igid oğulları Qarabağı düşmən tapdağından azad etmək üçün döyüşə atılarkən Əli Kərimli Bakıda bəlli ölkələrin kəşfiyyat qurumlarının siyasi sifarişlərini reallaşdırırdı. Xalqın AXC-Müsavat hakimiyyətini devirdikdən sonra belə Əli Kərimli şəxsi və ailə maraqları naminə Azərbaycan dövlətinin və xalqının mənafeyini satmaqla məşğul oldu. Təsadüfi deyil ki, müxalifətdə xəyanətkar adı qazanan Əli Kərimli Ə.Elçibəyə xəyanətdə, AXCP-ni parçalamaqda günahlandırılır.

Əli Kərimli, onun yaxın siyasi tariximizdəki separatizm və xəyanətləri yenə siyasi gündəmin mövzusudur. Son 25 ildə müxalif düşərgədəki siyasi durumdan asılı olmayaraq, Əli Kərimlinin mənfi reputasiyası zaman-zaman gündəmə gəlib. Bu şəxsin adı müxalif düşərgədən gizli danışıqlara girən ilk siyasətçidən tutmuş, Əbülfəz Elçibəyin zəhərlənməsinə qədər ən ilginc olaylarda hallanıb. Söhbət təkcə Əbülfəz Elçibəyin zəhərlənməsindən getmir, digər bulanıq-çirkli məsələlərdə də məhz Əli Kərimlinin adı həmişə öndə olur. Əli Kərimli onun kimi düşünməyənlərə, onun ətrafında olmayanlara, onun liderliyini qəbul etməyənlərə "satqın" damğası vurmağa vərdiş edib.

Əli Kərimlinin təhdid və qorxu dolu daxili dünyası gerçəklərini qiymətləndirməsinə maneə olur. Onun ən böyük gerçəyi yalandır. Buna görə, tez-tez haqqında olan gerçəkləri gözdən itirməyə çalışır. Daha doğrusu, apardığı analizlərində həqiqətlərin qəlibinə öz gerçəklərini doldurur. Bu gerçəkləri qorumaq üçün əl atmadığı variant, üz tutmadığı yol yoxdur. O, heç vaxt özündən başqasını anlamayıb. Çatmaq istədiyi məqsədləri uğrunda rahatlıqla ən yaxın adamını belə əzməyə hazırdır. Bu səbəbdən də AXCP-yə maliyyə gəliri qazandıran sənaye müəssisəsi kimi baxan Əli Kərimli, onun keçmiş müavini Razi Nurullayevin dediyi kimi, cəbhəçiləri portağal qabığı kimi soyur. O, həmişə cəbhəçilərin ən kiçik istəklərini belə özünə qarşı təhdid kimi görüb.

Bütün işi-gücü şər, böhtan, yalan yaymaq, dezinformasiyalarla insanları çaşdırmaq, yalnız hakimiyyətə qarşı təxribat törətmək, cəmiyyəti qarışdırmaq olan Əli Kərimlini Azərbaycan düşündürsəydi, ailəsini ölkədən kənarda saxlamazdı, oğlu Türkel Kərimlini hərbi xidmətdən yayındırıb ABŞ-a qaçırmazdı. Əli Kərimli xəyanətkar olduğundan bir dəfə də olsun Qarabağı işğal edən ermənilərdən, onları müdafiə edənlərdən bəhs etmir, anti-Azərbaycan qüvvələrə qarşı çıxmır, erməni fondlarından gələn pullardan imtina etmir. Çox maraqlıdır ki, Əli Kərimli bu günə qədər xalqımızın və dövlətimizin uğurlarından, nailiyyətlərindən bir kəlmə belə olsun danışmayıb, yazmayıb. Görünür, Əli Kərimli özünü azərbaycanlı, bu torpağın övladı hesab etmir.

Görünən odur ki, Əli Kərimli Azərbaycan dövlətinin və xalqının düşməni kimi yalnız ölkəmizin uğursuzluğunu arzulayır, Vətənimizin dara düşməsi üçün düşmənlərimizin əlində maşa olmağı özünün həyat amalına çevirib.

Əminəm ki, zaman gələcək vətən xaini olan Əli Kərimli satqınçılıq əməllərinə görə bu xalq, bu millət qarşısında cavab verəcək.

# Ermənistanda kriminal vəziyyət nəzarətdən çıxıb




Ermənistanın sabiq daxili işlər naziri 1 mart terroru ilə bağlı xüsusi istintaq komitəsinə çağırılıb. Ona ölkəni tərk etməmək barədə bildiriş verilib və əmlakına müsadirə qoyulub.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, 1 mart terroru ilə əlaqədar sabiq daxili işlər naziri general-polkovnik Vladimir Kasparyan Xüsusi İstintaq Komitəsinə çağrılıb. O, istintaqa ifadəsində verilən göstərişi yerinə yetirdiyini deyib. V.Kasparyan, həmçinin iş adamından 900 milyon dram rüşvət almaqda şübhəli bilinir. Onun həyat yoldaşının adı isə fırıldaqçılıqda hallanır.

Ümumiyyətlə işğalçı ölkədə kriminal vəziyyət də sabit deyil. Əhali polis özbaşınalıqlarından və hakimlərin laqeydliyindən narazılıq edir. Polisin işgəncəsi və zorakılığı nəticəsində 32 yaşlı şəxsin ölümü ölkədə böyük etirazlara səbəb olub. Onun yaxınları bildirib ki, üç polis əməkdaşı axşam saatlarında yaşadıqları evə girərək heç bir səbəb gətirmədən bölməyə getməli olduğunu deyiblər. Polislər zor tətbiq edərək uşaqların gözü qarşısında onun qollarını qandallayıb bölməyə aparıblar. Ölən şəxsin anası baş nazir Nikol Paşinyana və baş prokuror Artur Davityana müraciət edib. "Görün Ermənistanda nələr baş verir. Ermənistanın daxili işlər naziri Valeri Osipyana üzümü tutub deyirəm. Ar olsun sənə və sənin polis əməkdaşlarına",- deyə narazı vətəndaş bildirib. Ümumiyyətlə, paytaxt sakinləri üçün güllə səsləri adi hala çevrilib. Ermənistan daxili işlər nazirliyinin yaxınlığında baş verən atışma nəticəsində 2 nəfər ölüb, 3 nəfər isə yaralanıb. Ölənlərdən biri 23 yaşlı futbolçudur.

# Fuad Muradov: "Nantda Azərbaycan məktəbinin açılması erməni lobbisinin ölkəmizə qarşı kampaniyalarını zərərsizləşdirmək üçün zəruri idi"



Fransanın Nant şəhərində Azərbaycan məktəbinin açılması erməni lobbisi tərəfindən orada mütəmadi olaraq ölkəmizə qarşı aparılan kampaniyaları zərərsizləşdirmək üçün zəruri idi. Bu sözləri jurnalistlərə müsahibəsində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov deyib. "Fransadakı erməni lobbisi mütəmadi olaraq Azərbaycana qarşı kampaniyalar həyata keçirməyə cəhd edir. Fransada yaşayan Azərbaycan icması fəaldır. Nant şəhərində 200-dən çox azərbaycanlı ailə yaşayır. Fransanın Nant şəhərində Azərbaycan məktəbinin açılması erməni lobbisi tərəfindən orada mütəmadi olaraq ölkəmizə qarşı aparılan kampaniyaları zərərsizləşdirmək üçün zəruri idi. Azərbaycan məktəbini oradakı azərbaycanlı icmanın nümayəndələri idarə edirlər", - deyə Komitə sədri qeyd edib. Komitə sədri vurğulanıb ki, ötən il İsveçrənin Bern şəhərində "Qarabağ" adlı ilk Azərbaycan məktəbi açılıb. Eyni zamanda, bu gün dünyanın 20-dən çox ölkəsində Azərbaycanın şənbə-bazar məktəbləri fəaliyyət göstərir. Biz onların fəaliyyətini daha da inkişaf etdirməliyik.

# Leyla Abdullayeva Ermənistan XİN-in mətbuat katibinin şərhinə münasibət bildirib




Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi öz şərhində Avropa İttifaqının (Aİ) Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı mövqeyinin Ermənistan-Avropa İttifaqı hərtərəfli və genişləndirilmiş tərəfdaşlığı haqqında sazişində aydın ifadə olunduğunu və orada digər prinsiplərlə yanaşı, öz müqəddəratını təyinetmə prinsipinə də istinad edildiyini bildirib.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bu məsələyə münasibət bildirərək deyib: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin Aİ-Ermənistan sazişində necə əks olunmasının detallarına varmadan, mən yalnız onu söyləyə bilərəm ki, bu bəyanat münaqişədə məhz iki tərəfin, yəni Ermənistan və Azərbaycanın mövcudluğunu, heç bir "üçüncü tərəf"in olmaması barədə həqiqətin dəyişilməzliyini növbəti dəfə sübut edir".

# Əli Kərimlidən "ayı" xidməti

## Və ya satqınlığı həyat fəlsəfəsinə çevirmiş AXCP sədrinin Formula 1 tapşırığı

***Son illər beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunun yüksəldiyini sübuta yetirir. Azərbaycanın yüksək təşəbbüskarlığı ilə paytaxtımızda təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlər Bakını artıq regionun diplomatik mərkəzinə çevirib. "Eurovision-2012" kimi möhtəşəm musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan başqa mötəbər idman tədbirlərinə - "Bakı-2015" I Avropa Oyunlarına və "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına uğurla evsahibliyi etdi. Bu il isə paytaxtımız Avropa Gənclərinin XV Yay Olimpiya Festivalını və eyni zamanda UEFA Avropa Liqasının finalını qəbul edəcək.***

Bunlara paralel olaraq bu mövsüm də daxil olmaqla 4 ildir Azərbaycan dünyanın bir nömrəli avtomobil yarışına - "Formula-1"ə uğurla ev sahibliyi edir. Aprelin 26-28-də dünyanın diqqəti yenidən Azərbaycana yönələcək. Bu müddətdə "Formula-1" Azərbaycan Qran-prisini 500 milyondan çox tamaşaçı izləyəcək. Dünyanın ən böyük informasiya holdinqləri, eləcə də 100-dən çox ölkənin xəbər agentlikləri Bakıda keçiriləcək "Formula-1" yarışı barədə xəbərləri dünyaya yayacaqlar. Dünyanın ən güclü pilotlarının mübarizə aparacağı yarış 200-dən çox ölkədə canlı yayımlanacaq.

Təsadüfi deyil ki, 2018-ci ildə Formula 1 Azərbaycan Qran-Prisində ümumilikdə 94 min tamaşaçı iştirak etmişdi. Lakin Formula 1-i izləmək üçün ölkəmizə gələn xarici turistlərin, avtomobilsevərlərin sayında ildən-ilə ciddi artım müşahidə olunmaqdadır. Məhz, builki yarışmanı izləmək üçün 78 ölkədən minlərlə avtoidman həvəskarı Azərbaycana təşrif buyurub.

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri, professor Əli Həsənovun "Azərbaycanın Formula 1 yüksəkliyi, milli qürur hissi və Əli Kərimli kimilərin mədə təfəkkürü" başlıqlı məqaləsində deyildiyi kimi, Formula 1 onlarla ölkədə nümayiş etdirilir, bütün dünyada 500 milyonluq izləyici auditoriyasına malikdir. Bu da o deməkdir ki, yarış boyunca dünyanın yarım milyard tamaşaçısı Bakı şəhərinin tarixiliyi və müasirliyi ilə tanış olur, ölkəmiz haqqında obyektiv məlumatlar alır. Bu, eyni zamanda Azərbaycanın turizm ölkəsi kimi reytinqini də artırır, turistlərin daha çox səfər etmək istədikləri məkana çevrilir. Elə bu səbəbdəndir ki, Formula 1 yarışı Azərbaycanın büdcəsinə hər il daha çox gəlir gətirir. Məsələn, Bakıda keçirilmiş ilk iki Formula 1 yarışı ölkə iqtisadiyyatına ümumilikdə 277.3 milyon dollar gəlir gətirib. Yəni, yarışların iki ilinə yatırılan 100 milyon dollar iki dəfədən çox qazanc verib.Təhlillər onu göstərir ki, Formula 1 Azərbaycan büdcəsinə növbəti illərdə daha çox gəlir gətirməklə yanaşı, ölkəmizin turizm imicinin daha da yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərəcək.

Əlbəttə ki, ölkə ictimaiyyətinin də diqqətini cəlb edən bu yarış Azərbaycan avtomobilsevərlərinin çoxdankı arzularını reallaşdırmış olur. Çünki uzun illərdir yalnız televiziyadan izləyə bildiyimiz Formula 1 sürət maşınlarını artıq paytaxtımızda canlı şəkildə görə bilirik. Bu isə özlüyündə Azərbaycanımızın inkişafını, ölkəmizin dünyanın əhəmiyyətli hissəsinə çevrilməsini nümayiş etdirir və sözügedən faktor həqiqətən insanlarımızın qürur mənbəyinə çevrilir. Məhz, yalnız Cənubi Qafqazın deyil, Avropanın tolerantlıq, sülh və inkişaf mərkəzlərindən biri kimi tanınan Azərbaycan "Formula-1" ilə uğur estafetini növbəti dəfə layiqincə davam etdirəcək.

Lakin təəssüflər olsun ki, Azərbaycanımızın uğurları, nailiyyətləri anti-Azərbaycan dairələri olduğunu kimi, daxildəki "5-ci kolon"un nümayəndələrini də ciddi şəkildə narahat edir. Azərbaycana qarşı aparılan çirkin kampaniyada bütün siyasi karyerası boyunca uğursuzluqlara düçar olan radikal müxalifət nümayəndələri xüsusilə "canfəşanlıq" göstərirlər. Fəaliyyətini bütünlüklə Azərbaycan xalqının və dövlətinin maraqlarına qarşı mövqe tutmağa kökləmiş dağıdıcılar "Eurovision-2012" mahnı yarışmasına, I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına qarşı aparılan antitəbliğatın arxasında duranlar idilər. Məhz, başda Əli Kərimli olmaqla radikal müxalifət bu gün də öz ampluasındadır: hədəfə isə Formula 1 yarışları alınıb.

Bununla da, onlar hər zaman olduğu kimi öz simasını bir daha ifşa etmiş olur və maddi maraqların əsirinə çevrildiyini təsdiqləyir. Anti-Azərbaycan dairələrin maddi dəstəyi ilə bu kampaniyanı aparan Əli Kərimli dərk edir ki, Azərbaycan xalqı heç zaman dövlətinin maraqlarını satmaz. Çünki onun yalan və böhtanları ancaq xarici qərəzli dairələrin işinə yarayır. Bütün bunlar da dağıdıcılar ermənipərəst dairələrin əmrlərini yerinə yetirməklə yanaşı, özünün xalq və dövlət maraqlarına qarşı mövqe tutduğunu və hər zaman maddiyyat qarşılığında satılmağa hazır olduğunu təsdiq edir.

Azərbaycanın beynəlxalq nüfuzuna zərbə vuranlardan biri kimi AXCP sədri Əli Kərimli antimilli proseslərdə daha çox aktivlik nümayiş etdirir. Azərbaycanı güclü dövlət kimi görmək istəməyən xarici qüvvələr də Əli Kərimlidən



*Bəhruz Quliyev, "Səs" qəzetinin baş redaktoru*

"xidmətlərin"də istifadə edir. Bu isə heç də təsadüfi deyildir. Çünki bəzi gəncləri yetişdirib, ermənilərlə masa axrasına əyləşdirən Əli Kərimlinin maddi maraqları üçün istənilən razılaşmaya gedəcəyi hər kəsə bəllidir. O, şəxsi mənafeyi naminə gəncləri öyrətmək istəyir ki, küçələrə çıxıb dağıtsınlar, xalqın əmlakına ziyan vursunlar, gedib ermənilərdən pul alsınlar. Özü ayrı-ayrı dövlətlərdən pul alıb necə Azərbaycanın əleyhinə işləyirsə, gəncləri də buna öyrətmək istəyir.

Çox maraqlıdır ki, nə Əli Kərimli, nə də başqaları Xocalı soyqırımı haqqında bir kəlmə danışmır, amma ölkəmizdə keçiriləcək beynəlxalq tədbirlərin qarşısını almaqdan ötrü xarici dövlətlərdən üsul və vasitələr axtarır. Əlbəttə ki, anlamalıdırlar ki, onların adı xalqımıza düşmən kəsilmiş ermənilərin adı ilə eyni sırada çəkilməlidir. Hətta, bir sıra ekspertlər düşünürlər ki, bu gün onlar Azərbaycana ermənilərdən daha çox ziyan vururlar. Məhz bu müxalifətçilərin vasitəsilə bəzi dövlətlər Azərbaycan xalqının maraqlarına ziyan vurmağa çalışırlar.

Bütün işi-gücü şər, böhtan, yalan yaymaq, dezinformasiyalarla insanları çaşdırmaq, yalnız hakimiyyətə qarşı təxribat törətmək, cəmiyyəti qarışdırmaq olan Əli Kərimlini Azərbaycan düşündürsəydi, ailəsini ölkədən kənarda saxlamazdı, oğlu Türkel Kərimlini hərbi xidmətdən yayındırıb ABŞ-a qaçırmazdı. Əli Kərimli xəyanətkar olduğundan bir dəfə də olsun Qarabağı işğal edən ermənilərdən, onları müdafiə edənlərdən bəhs etmir, anti-Azərbaycan qüvvələrə qarşı çıxmır, erməni fondlarından gələn pullardan imtina etmir. Çox maraqlıdır ki, Əli Kərimli bu günə qədər xalqımızın və dövlətimizin uğurlarından, nailiyyətlərindən bir kəlmə belə olsun danışmayıb, yazmayıb. Görünür, Əli Kərimli özünü azərbaycanlı, bu torpağın övladı hesab etmir.

Görünən odur ki, dağıdıcı müxalifət və onların nəzarətində olan sosial şəbəkə səhifələri yalnız Azərbaycan dövlətinin və xalqının milli maraqlarına zərər vurur. Onlar məqsədli şəkildə Azərbaycanın beynəlxalq səviyyədə imicinə zərbə vurmaq və beləliklə də, sifarişlərini yerinə yetirdikləri xarici dairələrin vəd etdiyi hansısa "hədiyyəni" əldə etmək istəyirlər. Bir sıra ölkələrdəki terror hadisələri və digər kriminogen halları Azərbaycana transformasiya olunmasını istəyən radikal müxalifət hakimiyyəti də şantaj etməkdən çəkinmir.

Amma bir faktı unudurlar ki, hər bir xarici dövlət, beynəlxalq təşkilat Azərbaycanı öz istədiyi kimi görmək istəyirsə, ancaq Azərbaycan dövləti onların maraq və istəyinə uyğun dövlət ola bilməz. Azərbaycan dövlətinin təməlində Azərbaycan xalqının maraqları, mənafeyi dayanır.

## Ərdoğan: "Türkiyəyə demokratiya dərsi keçmək istəyənlərin hamısı qanlı bir keçmişə sahibdir"



Türkiyə Prezidenti Administrasiyasında "Arxivlərimizin inkişafı, perspektivi və tarixi araşdırmalarda rolu" mövzusunda simpozium keçirilib. AZƏRTAC xəbər verir ki, simpoziumda çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 1915-ci il hadisələri ilə bağlı fikir və mülahizələrini bölüşüb. Saxta "erməni soyqırımı" iddiasının səbəb və məqsədlərindən danışan dövlət başçısı diqqətə çatdırıb ki, Türkiyə arxivlərinin qapıları həqiqəti bilmək istəyən hər kəsə açıqdır. Prezident Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, Türkiyəyə insan haqları və demokratiya dərsi keçmək istəyənlərin hamısı qanlı bir keçmişə sahibdir. Saxta "erməni soyqırımı" iddiası ilə ortanı qarışdırmaq istəyənlərin heç birinin həqiqət axtarmadıqlarını bilirik.

## İştirak payından və səhmindən gəlir əldə edən vergiödəyicisi 3 il vergidən azaddır



Vergi Məcəlləsinin cari il yanvarın 1-dən qüvvəyə minmiş maddələrinə əsasən, vergiödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50 faizi müvafiq olaraq gəlir və mənfəət vergilərindən azaddır. Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, sözügedən güzəşt azı 3 il ərzində mülkiyyətdə olan iştirak payının və ya səhmin təqdim edilməsinə münasibətdə tətbiq olunur. Üç ildən az müddətə mülkiyyətdə olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərin 50 faizinin müvafiq olaraq gəlir və mənfəət vergilərindən azad edilməsi qanunvericilikdə nəzərdə tutulmur.

## Qanunsuz miqrasiyaya qarşı tədbirlər zamanı 102 əcnəbi saxlanılıb

Ötən həftə Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 102 əcnəbi saxlanılıb. DMX-dən AZƏRTAC-a bildiriblər ki, onlardan 1 nəfərin gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə, 2 nəfərin qanunsuz əmək fəaliyyəti ilə məşğul olması, 5 nəfərin qeydiyyat ünvanı üzrə yaşamadığı, digər 94 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadıqları müəyyənləşdirilib.



Saxlanılmış əcnəbilərdən 85 nəfər barəsində inzibati qərarlar verilib, digər əcnəbilərin Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür. DMX tərəfindən qanunsuz miqrasiyaya qarşı mübarizə çərçivəsində tədbirlər davam etdirilir.

# "Bir kəmər, bir yol"-da Azərbaycan logistika mərkəzidir

***Qərbin hegemonluq iddiası, demokratiya maskası altında bütün dünyanı nəzarət altına almaq istəyinin fonunda Şərqə meyilli olduğu heç də gizli deyil. O da gizi deyil ki, Şərq inkişaf dinamikasına görə Qərbi də köhnə qitəni də çoxdandır ki, geridə qoyub və indi diqqət mərkəzi kürənin bu istiqamətinə yönəlib.***

İndi Avropa ölkələri hərcmərcliklərlə, parçalanmalarla, daxili problemlərlə mücadilə etdiyi halda Şərqdə dinamik inkişaf müşahidə edilir. Etiraf etmək lazımdır ki, Avropanın ən nüfuzlu ölkələrinə məxsus markaların, brendlərin istehsalı belə şərqdə, xüsusi olaraq, Çində həyata keçirilir. Avropa ölkələrinin avtomobil istehsal edən zavodlarından tutmuş, ən kiçik toxuculuq fabriklərinə qədər hamısı Çində məskunlaşıb. Bu, həmin ölkənin iqtisadi cəhətdən düzgün strategiya irəli sürdüyündən xəbər verir və eyni zamanda, tezliklə bütün dünya ölkələri arasında iqtisadi hegemonluğunu təsdiqləyir, bundan sonra daha da güclənəcəyini proqnoz verməyə əsas yaradır.




### Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkədir

Çində aprelin 25-27-də onlarla dövlət başçısının iştirakı ilə keçiriləcək "Bir kəmər, bir yol" layihəsinin ikinci forumu ərəfəsində çinlilər layihənin uğurları barədə danışmaq üçün irimiqyaslı kampaniyaya start veriblər. Xatırladaq ki, Çin Xalq Respublikası 2013-cü ildə Avrasiya ölkələri arasında infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyası elan edib. Strategiya "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu" olmaqla iki əsas inkişaf istiqamətini nəzərdə tutur. Onu da nəzərə almaq lazımdır ki, Çin ilə Azərbaycan xalqları arasında böyük tarixə malik olan dostluq münasibətləri nəticəsində Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır və bu ölkəmiz üçün çox önəmlidir. Bu, həm də Azərbaycanın özünün Cənubi Qafqaz regionunda çox önəmli bir ölkə olduğunu isbatlayır.

Şimal ilə Cənubun, Şərq ilə Qərbin qovşağında yerləşən, Asiya və Avropa qitələri arasında körpü rolunu oynayan Azərbaycan bu baxımdan nəqliyyat və geosiyasi mövqe üstünlüyünə malikdir. Çinin Azərbaycanı öz layihəsinə dəvət etməsi məhz buna görə heç də təsadüfi hesab olunmur. Qədim İpək Yolu və müasir "Bir kəmər, bir yol" strategiyası üçün çox vacib rol oynayan Azərbaycanın nəqliyyat-logistika üstünlüyü özünü açıq şəkildə göstərir və bu gün biz bu üstünlüyün şahidiyik.

### "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yeganə üzvü olan Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə də bu layihəyə qoşulmaq şansı yaradır

Layihənin əhəmiyyəti haqqında düşündükdə, 2019-cu il yanvarın 22-də isə Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı mövzusunda keçirilən sessiyanı xatırlamaq yerinə düşərdi. Söhbət trilyonlarla ölçülən böyük, hətta nəhəng, qlobal layihədən gedir. "Şərq-Qərb" Nəqliyyat Dəhlizi təşəbbüsünün fəal üzvü olan Azərbaycanın Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləməsi ən uğurlu addımlardandır. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir və bu baxımdan Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə də bu layihəyə qoşulmaq üçün imkanlar yaradır.

Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi önəmli infrastruktur layihələri "Bir kəmər, bir yol" təşəbbüsü və ümumilikdə regional əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir. Bir müddət əvvəl istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti sayəsində Çindən Avropaya yüklərin daşınma müddəti xeyli azalıb. Bu, o deməkdir ki, Çindən daşınan yüklər iki həftə müddətində Azərbaycandan keçərək Avropaya çatır. Bakı-Tbilisi-Qars layihəsi həm də Azərbaycanın dəmir yolu nəqliyyatı sahəsində çox mühüm rol oynadığını nümayiş etdirir.

### Çin Azərbaycan vasitəsilə Avropaya daha sürətli çıxış imkanı qazandığının fərqindədir və bunu layiqincə dəyərləndirir

Avropa ilə Asiya arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu təkcə Azərbaycan, Gürcüstan və Türkiyə üçün deyil, ümumilikdə Avrasiya regionunda yerləşən ölkələr üçün də iqtisadi baxımdan yeni imkanlar deməkdir. Dünyanın ən böyük ixracatçı və ikinci ən böyük idxalçı ölkəsi olan Çinin də bu dəmir yoluna marağı başadüşüləndir. Həmçinin Çin hökuməti çox yaxşı bilir ki, bu dəmir yolu "Bir kəmər, bir yol" strategiyasının səmərəliliyini də artıracaq. Ona görə də, Çinin bu dəmir yolu xəttinə böyük əhəmiyyət verməsi təsadüfi deyil və Çin Azərbaycan vasitəsilə Avropaya daha sürətli çıxış imkanı qazandığının fərqindədir və bunu layiqincə dəyərləndirir.

Quyd etmək lazımdır ki, "Bir kəmər, bir yol" layihəsi Azərbaycanda qeyri-neft sektorunun inkişafı, fərqli mənbələrdən daxilolmanın artırılması baxımından daha çox vacibdir. Heç şübhəsiz ki, bu layihə Azərbaycanın dövlət gəlirlərinin artmasına, ölkəyə daxil olan valyuta həcminin genişlənməsinə öz töhfələrini verəcək.

***İnam HACIYEV***

# Ekspert: "Doing Business 2020"də mövqeyimizin yaxşılaşması Azərbaycandakı islahatlara beynəlxalq qiymət kimi xarakterizə olunur

"Doing Business 2020"yə dair islahat icmalının təqdim edilməsi ondan xəbər verir ki, Azərbaycan hökuməti bu il də islahatları davam etdirmək və dərinləşdirmək niyyətindədir. Bu barədə AZƏRTAC-a iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, Azərbaycan "Doing Business 2019"da ən yaxşı investisiya mühitinə malik olan 25 ölkədən biri elan olunmuşdu.

"Doing Business 2020"yə dair islahat icmalında 11 indikator üzrə mövcud vəziyyətin qiymətləndirilməsi, eləcə də təkmilləşdirilməsi ilə bağlı fəaliyyət təqdim olunub. "Doing Business"in əsas fəlsəfəsi və qiymətləndirmə meyarı ondan ibarətdir ki, xidmətlərin alınması üçün tələb edilən günlərin, prosedurların sayında azalmalar olsun, iş adamları, vətəndaşlar daha az xərclər və xidmətlərdən faydalana və yararlana bilsinlər", - deyə V.Bayramov bildirib.

"Doing Business"in 11 indikatoru üzrə həm ötən il, həm də bu il həyata keçirilən islahatlara diqqət yetirsək görərik ki, biznesin qeydiyyatı, tikinti üçün icazələrin alınması,



elektrik təchizatına qoşulma, əmlakın qeydiyyatı ilə bağlı prosedurların sayında ciddi azalmalar müşahidə olunub. Bir neçə gün öncə əmlakın qeydiyyatı ilə bağlı çıxarışların elektronlaşdırılması həyata keçirilib. Azərbaycan əmlakın qeydiyyatına görə dünyada 17-cidir. Bu, ilk iyirmiliyə daxil olmaq deməkdir. Güman olunur ki, son islahatlardan sonra bu indikator üzrə mövqeyimiz daha da yaxşılaşacaq. Eyni zamanda, tikintiyə icazələrin verilməsi, elektrik enerjisindən istifadə ilə bağlı tələb edilən günlərin və prosedurların sayında azalmalar var. Bu il yanvarın 1-dən Vergi Məcəlləsində edilmiş dəyişikliklər vergi yükünün azalmasına gətirib çıxardı. Bu, bizim mövqeyimizə və "Doing Business 2020" hesabatında qiymətləndirməyə birbaşa təsir göstərir. Azərbaycan idxal və ixrac üçün tələb edilən günlərin və prosedurların sayında da azalmalar var. Çünki "Yaşıl dəhliz" buraxılış sisteminin tətbiqi günlərin sayının azalmasına səbəb oldu", - deyə o əlavə edib.

"Aparılan islahatlar Azərbaycanın əsas istiqamətlər üzrə "Doing Business 2020"də mövqeyinin daha da yaxşılaşmasına gətirib çıxara bilər. İslahatların aparılması növbəti illərdə ölkəmizin hesabatda ilk 20-liyə daxil olmasına şərait yaradacaq. İslahatların dərinləşməsi fonunda Azərbaycan hesabata əsasən qarşıdakı illərdə dünyada ən yaxşı investisiya mühitinə malik olan 20 ölkədən biri seçilə bilər. Məqsəd beynəlxalq hesabatlarda mövqeyimizin yaxşılaşdırılması ilə yanaşı, iş adamlarının daha yaxşı biznes mühitindən faydalana, xidmətlərdən elektron qaydada yararlana bilmələridir. "Doing Business 2020" hesabatında mövqeyimizin daha da yaxşılaşması Azərbaycanda aparılan islahatlara beynəlxalq qiymət kimi də xarakterizə olunur", - deyə ekspert diqqətə çatdırıb.

## İki ayda Azərbaycana 37 avtobus gətirilib

Bu ilin yanvar-fevral aylarında Azərbaycana 37 avtobus idxal olunub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, iki ayda, həmçinin ölkəyə 4707 ədəd minik avtomobili, 397 ədəd yük avtomobili, 37 ədəd avtobus gətirilib.

## Üç ayda nəqliyyat vasitələri ilə 460 milyondan çox sərnişin daşınıb

Cari ilin yanvar-mart aylarında nəqliyyatçılar 460,7 milyon nəfərə və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox sərnişinə xidmət göstərib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, sərnişinlərin 87,7 faizi avtomobil nəqliyyatı, 12,1 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb.

# Dövlət başçısının Sərəncamına əsasən, İkinci Dünya müharibəsi iştirakçılarına birdəfəlik maddi yardım veriləcək



***Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə dövlət başçısı tərəfindən həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindəndir. Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi digər sosial qruplar kimi, əlillərin, şəhid ailələrinin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır.***

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İkinci Dünya müharibəndə od-alov püskürən cəbhələrində ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına da Azərbaycanda böyük sayğı var. Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", - deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını "xalqımızın qızıl fondu" adlandırırdı. Belə ki, xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərmişdir. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək, bu meydanda fəal iştirak edib.

Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranları qayğılarına həssaslıqla yanaşır. Azərbaycanda hazırda 1000 nəfərdən artıq Böyük Vətən müharibəsi veteranı yaşayır. 9 may faşizm üzərində qələbədən 74 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyi ilə Berlinə qədər getməsi, fədakarlığı və ərənliyi torpaqlarımızın 20 faizini işğal alğında olduğu bir zamanda bugünkü gənclərə örnəkdir.

1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallara təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 74-cü ildönümü ilə əlaqədar 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1000 (min) manat məbləğində, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti bariz nümunəsidir.

***Nəzakət BAYRAMOVA***

# "ASAN ödəniş" sistemi ödənişləri qısa müddət ərzində həyata keçirmək imkanı yaradır

Aprelin 24-də Elektron Hökumətin İnkişafı Mərkəzində (EHİM) kütləvi informasiya vasitələri nümayəndələri üçün "ASAN ödəniş" sistemi ilə bağlı xüsusi təqdimat keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən mərkəzin rəhbəri Fariz Cəfərov "ASAN ödəniş"ə qoşulan yeni qurumlar, sistemin üstünlükləri, yeniliklər, o cümlədən EHİM-in digər layihələri haqqında ətraflı məlumat verib. F.Cəfərov bildirib ki, "ASAN ödəniş" sisteminin Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanına əsasən təsdiq edilib.




"EHİM tərəfindən fəaliyyəti təmin edilən çoxfunksiyalı "ASAN ödəniş" sistemi cərimə, vergi, rüsum, kommunal, lizinq, kredit, xidmət haqqı və digər istiqamətlərdə ödənişləri qısa müddət ərzində, təhlükəsiz və rahat şəkildə həyata keçirmək imkanı yaradır. Həmçinin respublika daxilində geniş ərazini əhatə edən "ASAN ödəniş" terminalları, həmçinin www.asanpay.az portalı və "ASAN Pay" mobil əlavəsi vasitəsilə istənilən xidmət üzrə heç bir məhdudiyyəti olmadan 24/7 ödəniş etmək mümkündür.

"ASAN ödəniş" sistemi vasitəsilə 30 mərkəzi, 79 yerli icra hakimiyyəti, 96 məhkəmə orqanı, 7 publik və dövlətə məxsus 7 hüquqi şəxs olmaqla 219 qurumun cərimə, vergi, rüsum, kommunal, lizinq, kredit, xidmət haqqı və digər istiqamətlərdə 541-dən çox xidmət üzrə ödənişləri həyata keçirilə bilər. Müvafiq ödənişləri www.asanpay.az ödəniş portalı, mobil tətbiqləri və terminalları, "Elektron hökumət" portalı, eləcə də sistemə qoşulmuş 10 mindən artıq ödəniş terminalları, respublika ərazisində fəaliyyət göstərən ən qabaqcıl ödəmə portalları, internet və mobil bankçılıq xidmətləri vasitəsilə nağd və ya nağdsız qaydada həyata keçirmək mümkündür.

## Muxtar respublikada ümumi daxili məhsul istehsalı artıb

Muxtar respublikada inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı 2019-cu ilin yanvar-mart aylarında 535 milyon 968 min manatdan artıq olub ki, bu da bir il öncəki göstəricidən çoxdur. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 1174 manatı ötüb. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,4 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 53,7 faiz təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-mart aylarında sənaye məhsulu 1,2 faiz, kənd təsərrüfatı məhsulu 2,4 faiz, nəqliyyat sektorunda yük daşınması 2,3 faiz, informasiya və rabitə xidmətləri 3,3 faiz artıb.



## Viktor Yanukoviç yenidən Ukraynaya qayıdır?



Ukraynanın sabiq Prezidenti Viktor Yanukoviç Vladimir Zelenskinin andiçmə mərasimindən sonra ölkəsinə qayıdacağına inanır. Bu barədə mətbuata onun vəkili Vitaliy Serdyuk məlumat verib. Vəkil bildirib ki, V.Yanukoviçin Ukraynaya qayıtması istiqamətində işlər davam etdirilir. "V.Yanukoviçin günahsız olduğunu sübut etmək üçün işlərimizi davam etdiririk, biz buna nail olacağıq",- deyə vəkil əlavə edib. Qeyd edək ki, bu ilin yanvarında Kiyev məhkəməsi V.Yanukoviç barəsində 13 il müddətinə həbs qətimkan tədbiri seçib.

# "İkinci variant müharibədir"

## Azər Badamov: "ABŞ və Fransa bilir ki, Dağlıq Qarabağ münaqişəsinin açarı Rusiyanın əlindədir"



Müsahibimiz millət vəkili Azər Badamovdur

***- Azər müəllim, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı xarici işlər nazirlərinin görüşündən sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün keçirilməsi nəzərdə tutulur. Sizcə, bu kimi görüşlər münaqişənin həllinə necə təsir göstərəcək?***

- Düşünürəm ki, görüşlərin intensivləşməsi Dağlıq Qarabağ münaqişəsinin həllində yeni dönəmin başlandığının göstəricisidir. Çünki son zamanlar münaqişənin həllinə yaxınlaşmasının olduğunu görürük. Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Paşinyan çalışırdı ki, danışıqlar bir başa separatçı rejimin rəhbəri ilə aparılsın. Amma Azərbaycan Prezidentinin iradəsi və qətiyyəti Paşinyana danışıqların Azərbaycanla Ermənistan arasında aparılmasından başqa bir alternativin olmadığını göstərdi. İndi isə görüşlərin tez-tez keçirilməsi münaqişənin həllini yaxınlaşdırır. Xarici işlər nazirləri, Prezident və baş nazir tez-tez görüşməlidirlər ki, ümumi bir razılıq əldə olunsun.

***- Son vaxtlar Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı təşkil olunan rəsmi görüşlərin böyük əksəriyyəti Rusiyanın vasitəsi ilə reallaşır. Bu anlama gəlmir ki, daha çox Rusiya münaqişənin həllində fəallıq göstərir?***

- Rusiya münaqişənin həllinə birbaşa təsir edə bilən tərəfdir. Rusiya həm ATƏT-in Minsk Qrupun həmsədridir, həm də Ermənistanda Rusiya hərbi bazası var və Ermənistan iqtisadiyyatını Rusiya idarə edir. Rusiyanın prezidenti və Valentina Matvenkonun Bakıya səfəri zamanı verdiyi bəyanatlarda da Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya rolunu artıracağını demişdi. Danışıqlar prosesinin aktivləşməsini də, məhz Rusiyanın dəstəyi ilə baş verdiyini düşünürəm. Bütün bunları nəzərə alaraq qeyd etmək olar ki, Rusiya konstruktiv mövqe sərgiləməyə başlamışdır.

***- Rusiyadan fərqli olaraq, ABŞ və Fransa münaqişənin həlli ilə bağlı passiv mövqedədirlər. Bu, nədən irəli gəlir?***

- ABŞ və Fransa münaqişənin həllində həmişə passivlik göstəriblər. Çünki ABŞ və Fransa bilir ki, Dağlıq Qarabağ münaqişəsinin açarı Rusiyanın əlindədir. ABŞ və Fransadan olan həmsədrlər problemə rəsmiyyət xatirinə yanaşırlar. Ona görə də, uzun illərdir ki, münaqişəyə son qoyulması istiqamətində heç bir nəticə ortada yoxdur. Düşünürəm ki, münaqişə ancaq Rusiyanın gücü ilə həll oluna bilər. İkinci variant isə müharibədir. Ona da biz hazırıq.

*GÜLYANƏ*

***Son günlər Ermənistan daxilində yaranmış gərgin vəziyyətin istər ictimai-siyasi, istərsə də sosial-iqtisadi müstəvidə təhlili göstərir ki, işğalçı ölkə uçurumla üz-üzədir. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi vədləri yerinə yetirə bilməməsi artıq erməni xalqı tərəfindən qəzəblə qarşılanır. Necə deyərlər, bıçaq sümüyə dirənib. Artıq erməni xalqı oturaq mitinq keçirmək qərarına gəlib. Paşinyan tərəfindən bir hərəkət belə hiss olunmaması onu bir daha sübut edir ki, işğalçı ölkənin baş naziri etirazları səngitmək üçün sələflərinin taktikasından istifadəyə daha çox meyillənir. Söhbət cəbhədə gərginliyi artırmaqla diqqəti daxili problemlərdən bu istiqamətə yönəltmək cəhdlərindən gedir. Görünür, Paşinyan hələ də küçə "siyasəti" aparmaqla, baş verənlərə görə məsuliyyəti hələ də anlamır. Dərk etmir ki, istənilən təxribatı ona daha baha başa gələcək və bununla yanaşı, düşmən təxribatı erməni ordusunda itkilərin sayını sürətlə artırır.***



# Paşinyan yenə küçə "siyasəti"ndən əl çəkmir

### Erməni ictimaiyyəti Azərbaycan ordusunun qüdrətinə dəfələrlə bələd olub

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə erməni tərəfinə sərt xəbərdarlıqlar edərək bildirib ki, bu gün Ermənistan ordusu bizimlə rəqabət apara bilməz və iyirmi il Ermənistana rəhbərlik etmiş kriminal diktatura rejimi çöküb.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirib və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan edib: "Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüquqi torpağı ondan ayrılsın. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcək".

Qeyd edək ki, dövlət başçısı dəfələrlə xəbərdarlığını edib və bildirib ki, bu şəraitdə Paşinyan hökuməti cəbhə təxribatlarına getməyə davam edərsə, onda Azərbaycan daha sərt tədbirlər görməli olacaq. Bir məqamı dönə-dönə vurğulamaq lazımdır ki, tarixi aprel qələbəsindən sonra Ermənistan hökumətindən fərqli olaraq bu ölkənin cəmiyyəti hadisələrin qeyd olunan səpkidə inkişafından ciddi narahatdır. Xüsusilə əsgər analarının narahatlığı və növbəti dəfə aprel döyüşlərinin təkrarlanması qorxusu erməni cəmiyyətində Paşinyana qarşı yeni etirazlara rəvac verir. Çünki bütün erməni ictimaiyyəti Azərbaycan ordusunun qüdrətinə yaxından bələddir.

### Ermənistanın xilası Azərbaycanın əlindədir

Ötən dövr çox aydın şəkildə göstərir ki, Azərbaycanla normal münasibətlər yaratmadan Ermənistanın bir dövlət olaraq mövcudluğunu davam etdirməsi mümkün deyil. Bunu Ermənistanının istər əvvəlki, istərsə də bu günkü dövlət rəhbəri yaxşı anlayır. Bu gün müasir Azərbaycandan bəhs edərkən onu xarakterizə edən əsas cəhətlər sırasında ilk olaraq dünyanın ən sürətlə inkişaf edən, davamlı nailiyyətlərə imza atan ölkəsi olmasına xüsusi diqqət yetirilir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar ölkəmizin beynəlxalq miqyasda da mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən faktorlardan biri kimi çıxış edir. Dinamik tərəqqisi Azərbaycanı artıq siyasi, iqtisadi cəhətdən nəinki regionda, daha böyük məkanda aparıcı ölkəyə çevrilməklə yanaşı, həmçinin dünyanın ən islahatçı ölkəsi sıralarındadır. Belə ki, Dünya Bankının hazırladığı "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülməsi və ən islahatçı ölkə elan olunması deyilənlərin reallığıdır.

Ermənistan isə daha böyük problemlərlə üzləşməkdədir. Belə olan halda aydındır ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir.

Bir sözlə acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan necə deyərlər Ermənistanı iflasdan iflasa sürükləməkdədir. Nə qədər ki, Ermənistan Azərbaycanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi məhrumiyyətlərə, məşəqqətlərə düçar olacaq.

*A.SƏMƏDOVA*

# "Ermənilərin tarixi şişirtmə, saxta və qondarmadır "

***"Ermənilərdə hər şey şişirtmə, saxta və qondarmadır. 2 min il bundan öncə mövcud olmayan dövlətləri ilə bağlı uydurma tarix yazırlar. Başdan ayağa uydurmalar içərisində, virtual aləmdə yaşayan erməni xalqı "erməni soyqırımı" məsələsini də bu cür faktlar əsasında uydurublar". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.***

Şərqi Anadoluda Osmanlı İmperiyası ərazisində cəmi 900 minə yaxın ermənin yaşadığını deyən politoloq bildirib ki, ruslar Türkiyəyə hücum etdikdə onlarla əməkdaşlıq edib, kəşfiyyat materialı ilə təmin etdilər ki bunun da nəticəsində ermənilər Osmanlı İmperiyasına qarşı zərbə vurdular: " Ruslar tezliklə bu əraziləri tərk edib getmək məcburiyyətində qaldılar. Amma gedərkən ağır artilleriya silahlarını ermənilərə buraxdılar. Ermənilər yenə də türklərə, türk kəndlərinə qarşı divan tuturdular. Osmanlı ordusu bu ermənilərin silahsızlaşdırılmasına və onların ram edilməsinə yönələn əməliyyat həyata keçirərək tezliklə bunu uğurla baş çatdırdılar. Sonradan isə edilən bu hərəkətlərə görə, erməniləri şərqi Anadoludan İraq köçürülməsi haqqında qərar çıxardılar".



Q. Hüseynli vurğulayıb ki, o zaman köçürülən ermənilərin 700 mini qatarla, 200 mini isə at, öküz arabası ilə köçürülürdü: "Köçürülənlərin arasında malyariya və digər buna bənzər xəstəliklər yayılmışdı. Ölənlərin çoxu elə məhz bundan öldülər. Bundan başqa o zaman müharibə dövrü olduğu üçün kürd quldur dəstələri fəal idilər. Ermənilərin bir qisminin, xüsusilə də qadınların öldürülməsində onların böyük rolu oldu. Dil bilmədikləri üçün kürd quldurları tərəfindən xəncərlə öldürülürdülər. Daha sonra bu quldurlar Osmanlı dövləti tərəfindən həbs olundu və onlara güllələnmə hökmü verildi. Hərçənd ki o zaman heç kim Osmanlı dövlətinə deməmişdi ki, ermənilərin qisasını al. Amma buna baxmayaraq günahsız yerə öldürülən erməniləri məhkəmə yolu ilə cəzaya məhkum etdi".

Politoloq qeyd edib ki, ikinci dünya müharibəsi zamanı yəhudilərə qarşı almanların törətdiyi hərəkətlərə soyqırımı kəlməsi uyduruldu ki, ermənilər bu kəlməni göydə qaparaq, istifadə etməyə başladılar: "Bir daha təkrar edirəm ki, həmin hadisələr dövründə 170 min erməni quldur dəstə və müxtəlif xəstəlikdən ölmüşdü. Osmanlı əsgərləri tərəfindən bir dənə erməniyə atəş açılmayıb. Bu fakt arxivlərdə də var. Amma indi 1.5 milyon ermənin qətl edildiyini deyirlər. Yalançı faktlar ermənilərin xislətinə uyğundur. Dünyanın bir qismi onlara havadarlıq etsə də, əksər qismi bunu qəbul etmir".

*Nailə Məhərrəmova*

# Əli Kərimli - "canlanan" ölü ruh

## Və ya AXCP-nin sədri erməni pulları üçün qəribsəyib



AXCP sədri Əli Kərimlinin son zamanlar fəallaşması onun daxilindəki anti-milli simasını növbəti dəfə və daha çox nümayiş etdirib. Ümumiyyətlə, ölkədə hər hansı bir mühüm beynəlxalq tədbirlər ərəfəsində "canlanan" bu ölü ruhun dərhal öz ətrafında süni ajiotaj yaratmaq cəhdləri, əslində, Ə.Kərimlinin yeni maliyyə imkanları əldə etmək marağını da təsdiq edir. Bu təkliflər isə ona "yuxarıdan" və uzaqlardan - qoca qitədən gəlir. Həmin qoca qitədən ki, orada erməni lobbisi formalaşıb və böyük pullar hesabına müəyyən bəlli dairələr ələ alınaraq, Azərbaycan dövlətinin əldə etdiyi hər bir uğura qarşı planlar cızılır.

Burada nökərçilik vəzifəsini həyata keçirən əsas fərd haqqında bəhs etdiyimiz Ə.Kərimlidir. Keçirdiyi mitinqlərində heç nə əldə edə bilməyən, dəstəkdən məhrum qalan AXCP sədri bütün gücünü saxta profillərdəki trollarına hesablanmış sosial şəbəkələrə yönəldib və ölkənin, xalqın maraqlarını təmin edən dövlətçilik siyasətinə qarşı mənfur şeytançılıq siyasətini davam etdirir. Əbəs deyil ki, Ə.Kərimli hələ illər öncə hakimiyyətə yiyələnməsi üçün şeytanla əməkdaşlığa hazır olduğunu etiraf etmişdi. İndi, həmin məsələ ortadadır - Bakıda dünya səviyyəsində ən mötəbər idman hadisəsi - "Formula - 1" yarışı keçirilir və birdən Ə.Kərimlinin "yadına düşür" ki, ötən ildə olduğu kimi, bu məsələni yenidən qabardıb, kirli erməni pulları qazansın. Sonra da həmin pulların bir hissəsini anti-Azərbaycan xarakterli fəaliyyətinə, digər hissəsini isə oğlu Türkel Kərimlinin Londondakı seks-partilərinə xərcləsin. Biz hələ onun ərköyün gül balasının digər əməllərini yazmırıq, lakin yazsaq belə, zatən ictimai rəyin böyük əksəriyyəti həmin əməllərdən xəbərdardır.

### Əli Kərimli "çevir-tatı, vur tatı" siyasəti ilə, sözün həqiqi mənasında, xalqın zəhləsini aparıb

Ona görə də, özü və ətrafı barədə faktlardan xəbərdar olan Ə.Kərimli gah "Facebook", gah "Youtibe", gah da digər sosial şəbəkələr vasitəsilə canlı yayımlara çıxmaqla məlum əməlləri ört-basdır etməyə, bunun üçün trollarını ortaya atıb söyüşlər, təhqirlər yağdırmaqla məşğul olur. Həmin vasitə ilə dövlət rəsmilərinin məntiqli, dolğun və gerçəklərə əsaslanan sözlərini ictimai rəydən yayındırmağa cəhdlər edirlər. Amma bu cəhdlər nəticəsiz qalır, qaldıqca isə qarşı tərəf daha da aqressivləşir.

Qeyd edək ki, biz belə halların yalnız "Formula-1" yarışlarında deyil, hələ "Eurovision" mahnı müsabiqəsindən baş verdiyini görmüşük. O cümlədən, I Avropa Oyunları, İslam Həmrəylik Oyunları və s. mötəbər beynəlxalq tədbirlərdə Ə.Kərimli "çevir-tatı, vur tatı" siyasəti ilə sözün həqiqi mənasında xalqın zəhləsini aparıb. Xalq isə onun bu oyunbazlıqlarından bezib və bezməyə də əsasları var əlbəttə ki...

### AXCP sədri özünü qoca qitədən gələn əmrlərə fəda edir - erməni pulu onun üçün bu qədər şirin və həzmi-rabeədən keçərlidir!

Bu zaman növbəti suallar yaranır: Ə.Kərimli bilmirmi ki, belə böyük tədbirlər Azərbaycana nə qədər vəsaitlər verir, yaxud anlamırmı ki, Azərbaycan dövləti yalnız iqtisadiyyatı ilə deyil, həm də nüfuzu ilə xalqın sosial-rifah halının daha da yaxşılaşdırması üçün müxtəlif nəhəng layihələri reallaşdırır və ya dərk etmirmi ki, aparılan çoxşaxəli siyasi, iqtisadi, sosial islahatların həyata keçirilməsində belə tədbirlərin əhəmiyyəti nə qədər böyükdür, düşünmürmü ki, son vaxtlar ardıcıl siyasət nəticəsində xalqın problemli kreditlərinin həll olunmasından başlayaraq, şəhid ailələrinə verilən birdəfəlik yardımlara, aztəminatlı ailələrin müavinətlərinin artımından tutmuş, əmək pensiyalarının və maaşların yüksəldilməsinə, vaxtaşırı olaraq, Qarabağ qazilərinə, əlillərə verilən mənzillərə qədər - hər şey məhz dövlətin yürütdüyü siyasətin məntiqi nəticəsidir...???

AXCP sədri bütün bunları yaxşı bilir və dərk edir. Hətta daha dərindən dərk edir! Sadəcə, ona Azərbaycanın yüksəlişi, xalqın həyat və yaşam səviyyəsinin dinamik qaydada artması, dövlətimizin dünya arenasında qüdrətinin yüksəlməsi, ordumuzun dünyanın 50 ən güclü silahlı qüvvələri sırasında yer alması və digər faktorlar ona sərf etmir. Bu uğurlar onun cibinə axan erməni pullarının qarşısına baryerdir, səddir. Ona görə də özünü necə deyərlər, qoca qitədən gələn əmrlərə fəda edir - erməni pulu onun üçün bu qədər şirin və həzmi-rabeədən keçərlidir!

### Qaçsınlar AXCP sədrinin qucağına və onunla birgə siyasi ölümə aparan əyri-üyrü yolda məhvə düçar olsunlar

Bu həmin Ə.Kərimlidir ki, çıxışlarının birində AXCP-nin "siyasi mübarizəsini" terrorçu "Taliban" qruplaşması ilə eyniləşdirmişdi. Belə "siyasi təfəkkürlüdən" ayrı nəyi isə gözləməyə dəyməz. Bu baxımdan, Azərbaycanın dinamik və sürətli inkişaf trayektoriyasını böyütməsi belələrinin daha da kiçilməsinə, hətta mikroskopla seçilən zərrəcikdən belə kiçilməsinə səbəb olur. Əgər kimlərsə həmin zərrəciklərlə dönmək istəyirlərsə, buyursunlar - ölkədə azad siyasi baxış, seçim və mühit mövcuddur, qaçsınlar AXCP sədrinin qucağına və onunla birgə siyasi ölümə aparan əyri-üyrü yolda məhvə düçar olsunlar. Yox, bunu istəmirlərsə, onda xilaslarını dövlətçilik maraqlarının daxili və xarici düşmənlərdən qorunmasında axtarsınlar, daha hər tədbirdən-tədbirə "canlanan" və cəmiyyətdə ölü ruh təsirini bağışlayan Ə.Kərimli adlı pafosçunun yanında deyil...

**Rövşən NURƏDDİNOĞLU**



## Erməni maşası Xədicə...

**RƏFİQƏ**

***Doğrusu oturub ha fikirləşdim erməni xidmətçisi satqın Xədicə İsmayılla bağlı yazdığım bu köşəyə elə düz ad vermişəm. Axı o, nə jurnalist kimi jurnalist, nə də azrəbaycanlı kimi azərbaycanlı olub. O, elə sadəcə bu millətin və dövlətin qənim kəsilmiş düşməni, erməni maşası olub. Daim Azərbaycan dövlətçiliyinə qarşı xüsusi aqressiyası ilə seçilən və bu gün də həmin aqressiyasını davam etdirən X.İsmayıl onu bilməlidir ki, xalqın qınağından qaçmaq olmaz. İndi bu qınaqdan qorxaq halda qalıbsan. Bəs nə bilirdin? Bir an sənin kimi satqın ermənilərlə işbirliyi quranları indi o qurumlar da qəbul etmir. Necə ki, Gültəkin Hacıbəyli AŞPA-nın kandarına yaxın gedə bilmir. İndi sənin kimilər vaxtı ilə sənə təlimatlar verən bir sıra xarici ermənipərəst qurumlar artıq səni də yaxın qoymurlar. İndi özünə "hüquq müdafiəçisi" adını da yapışdırmaq üçün "siyasi məhbus" biznesinə əl atıbsan. Ortaya düşüb başlamısan vaxtı ilə "getmə gözümdən, gedərəm özümdən" AXCP sədri Əli Kərimliyə qarşı təxribata.***

Bax, bu yerdə bir faktı da xatırlatmaq yerinə düşər ki, sən Xədicə hələ həbs olunmamışdan öncə, real hüquq müdafiəçilərinin hədəfinə tuş gəlmişdin. Belə ki, məhbuslarla bağlı yaradılmış "İşçi Qrupu" etiraz olaraq Facebook-da bəyanat yaymışdı. Bəyanatda diqqət çəkən məqam isə X.İsmayılın adının qarşısına "tanınmış hüquq müdafiəçi" yazılması "statusu" idi. O zaman sual yaranır ki, ay erməni maşası, bu statusu nə vaxtdan daşıyırsan? Sən "hüquq müdafiəçisi" yox, qatı, beynəlxalq səviyyəli provokatorsan. Yəqin ki, bu ifadələrlə hər dəfə tanış olduqdan sonra, hər hansı bir izaha da ehtiyac qalmır. Çünki bu gün bu beynəlxalq səviyyəli provokator barəsində nə kimi ifadələr işlədilibsə, haqqına və doğruya işlədilib. Çünki kimsəyə sirr deyil ki, Azərbaycan hökuməti hər zaman insanların hüquqlarının qorunması ilə bağlı lazımi addımları atıb. Bütün bu kimi məsələlərin gündəmdə olduğu bir vaxtda xaricə satılmış hansısa kəşfiyyatçıya, təxribatçını, ajiotajçını və satqını "hüquq müdafiəçisi" kimi təqdim etməyin özü də bir xəyanətdir!

Başqa bir məsələ isə, ondadır ki, bu, o X.İsmayıldır ki, bütün həyatı boyu onun-bunun əlində oynadılıb. Niyə? Cavab bəllidir. Təki xarici təşkilatlar ona nə edirlərsə, etsinlə, əvəzində qrantını alsın. Neyləsin, bu da belədir də... Bir növ adətkardır. "Buna adətkar olan X.İsmayıl hara gəldi, necə gəldi elə soxur özünü. "Azadlıq" radiosuna da soxulduqdan sonra özünü jurnalist kimi təqdim etdi və başladı Azərbaycana qarşı şər, böhtan atmağa. Min sifət görən X.İsmayıl üçün hər şey qrantla ölçülür - abır, əxlaq, mənəviyyat.

Bir faktı xatırlatmaq kifayətdir. Belə ki, bütün dünya mətbuatın azadlığını qeyd edərkən, X.İsmayıl fürsətdən istifadə edərək Azərbaycana qarşı ittihamlar deməkdən usanmadı. "Əl-Cəzirə" telekanalının ingilisdilli saytında "Araşdırma jurnalistikasının artan önəmi" adlı məqaləsində Azərbaycan hökumətini tənqid edərək erməni dostlarından ən fəalı olan Eni Vandaryan ona dəstək verdi.

Bu baxımdan, X.İsmayıldan ermənilərin maraqlarına xidmət edən təşkilatlar çox məharətlə istifadə edirlər. Onun əsas fəaliyyətini Azərbaycanın milli maraqlarına zərbə vurmağa yönəldiblər. Bu gün də özünü xüsusi əlahiddə status sahibi hesab edən X.İsmayılın bundan sonra düzələcəyinə də inam azdır. Çünki onun özü də getdiyi yolu kimi əyri olub. Necə deyərlər, qozbeli qəbir düzəldər. Ancaq Xədicəni heç qəbir də düzəltməz. Bunu onun özü də yaxşı bilir. Xədicə yaxşı bilir ki, onun donqarı heç vaxt düzəlməyəcək. Çünki həmin donqarın içində yalnız və yalnız xəyanətlər var. Özü də kifayət qədər!

# Paytaxt sakinlərinə avtomobilləri üçün pulsuz parklanma talonu veriləcək

Yol kənarında yerləşən binaların sakinlərinə avtomobilləri üçün pulsuz parklanma talonu veriləcək. AZƏRTAC xəbər verir ki, Nazirlər Kabineti "Fərdi parklanma talonlarının forması, habelə onların verilməsi Qaydası"nı təsdiqləyib. Bu Qayda fərdi parklanma talonlarının formasını, habelə onların verilməsi qaydasını müəyyən edir.

Qaydada göstərilib ki, yerli icra hakimiyyəti orqanları və Bakı Nəqliyyat Agentliyi (Bakı şəhərinin inzibati ərazisində) fərdi parklanma talonlarının uçotunu aparır. Parklanma yerlərinin təşkil edildiyi avtomobil yollarının kənarında yerləşən evlər və ya binalar təşkil edilmiş parklanma yerindən hər iki istiqamətdə yolun hər iki kənarı boyu 100 metr məsafədə yerləşən ev və ya binalardır. Pulsuz parklanma yerinin ayrılması təşkil olunmuş parklanma yerindən rezervasiya edilmədən ödənişsiz istifadə imkanlarının yaradılmasıdır. Parklanma yerləri təşkil edildiyi avtomobil yollarının kənarlarında yerləşən evlərdə və ya binalarda yaşayan minik avtomobillərinin istifadəçiləri üçün onların müraciətinə əsasən yerli icra hakimiyyəti orqanları tərəfindən pulsuz parklanma yerləri ayrılır və onlara fərdi parklanma talonu (Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla) verilir. Bakı şəhərinin inzibati ərazisində isə pulsuz parklanma yerləri Bakı Nəqliyyat Agentliyi tərəfindən ayrılır və yerli icra hakimiyyəti orqanları tərəfindən fərdi parklanma talonu verilir.



# Müxalifət partiyalarından növbəti parçalanmalar gözlənilir

***Bu, bir faktdır ki, müxalifət formalaşa və inkişaf edə bilmir. Yaratdıqları blok və qurumlar partiya sədrlərinin iddiaları səbəbindən dağılır. "DUH", "SİDSUH", "Azadlıq" siyasi bloku və nəhayət, 2013-cü il prezident seçkiləri ərəfəsi yaradılan "Milli Şura" dağılan qurumlardır. Artıq fəlakət böyük fəallıqla yaradılan "Azərbaycan Xalq Hərəkatı"nın qapısını da döyməkdədir. Daha doğrusu, "AXH" iki yerə parçalanıb. Bütün bunlar bir daha təsdiq edir ki, müxalifət liderləri bir araya gəlmək gücünə malik deyillər. Söhbət etdiyimiz müsahiblərimiz də bildirdilər ki, xarici maraqlı dairələrin sifarişlərinə baxmayaraq müxalifət birlik modeli ortaya qoya bilmir, çünki birinci olmaq iddiaları onların bir araya gəlmələrinə imkan vermir.***

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Müxalifətdaxili anormallıq davam edəcək"



- Bu gün dağıdıcı müxalifət düşərgəsində təmsil olunan siyasi təşkilatlar bir-birindən fərqli ideologiyalara və məqsədlərə xidmət edən təşkilatlardır. Onlar, əslində, bir siyasi partiya kimi təşəkkül tapmayıb. Onların çoxu 1990-cı illərin əvvəllərində yaranan və normal fəaliyyətlə məşğul olmayan, eyni zamanda dövrün, zamanın tələblərinə uyğun partiya quruculuğu işi aparmayan partiyalardır. Bu partiyalar bir-birlərindən çox fərqlənirlər. Əslində, bunlar ayrı-ayrı şəxslərin ətrafında toplaşmış qruplardır. Bu baxımdan, onları hansısa siyasi maraqlar ətrafında birləşmiş qruplar adlandırmaq olmaz. Hər bir partiya sədri iddialıdır, çalışırlar ki, digər partiyaları özlərinə tabe etdirsinlər. Hədəfləri, niyyətləri hər zaman belə olub. Bu da qarşıdurmalara, çəkişmələrə gətirib çıxarıb. Yəni maraqları naminə fəaliyyət göstəriblər və bir-birlərini də didiblər. Hətta müxalifət təmsilçiləri arasında yaranan didişmələr böyük savaşlara gətirib çıxarıb. Ona görə də, heç vaxt bunların arasında birlik olmayıb, yaratdıqları qurumlarda az sonra parçalanıb. Səbəb də onların bir-birini qəbul etməməsi və şəxsi ambisiyalarının öndə olması ilə bağlıdır. Bu cür anormallıq davam edəcək. Çünki onlar normal siyasi islahatlar aparmırlar, üzləşdikləri uğursuzluqlarını heç vaxt müzakirə etməyiblər ki, nəyə görə, acınacaqlı vəziyyətə düçar olublar. Məhz bu cür faktlar onu deməyə əsas verir ki, müxalifətin yaratdığı qurumlar ölü doğulmuş uşaq kimi bir şeydir. Yəni cansız varlıq kimi bir şeydir, o heç vaxt canlanıb irəli getməyəcəkdir.

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Müxalifətdaxili toqquşmalar partiyaların parçalanması ilə nəticələnir"



- Demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslərin fəaliyyəti anormal qurulub. Hansısa blok yaratdıqları zaman sensasion açıqlamalar verirlər. Ancaq bir-iki ay sonra o qurumlar dağılır. Səbəbi odur ki, bu insanlar vahid ideya ətrafında toplaşmayıblar. Qurumların ömrü o vaxt effekt verir ki, konkret ideya ətrafında birləşsinlər, ideya ətrafında fədakarlıq göstərməyə hazır olsunlar. Amma bu cür qurumlar da, konkret olaraq "Milli Şura"da və başqalarında vahid ideya yoxdur. Onları düşündürən ancaq şəxsi maraqları və ambisiyalarıdır. Həmişə də şəxsi ambisiyaları aralarında dava-dalaş yaradıb. Maraqların toqquşması nəticə etibarilə partiyaların parçalanması ilə nəticələnir. Demək olar ki, bunların 26 illik taleləri belə olub. Yəni müxalifət düşərgəsini təmsil edən şəxslər hər il bir qurum yaradırlar, gurultulu vədlər verirlər və sonda da dağılırlar, parçalanıb gedirlər. Onların bu cür hərəkətlərini, xarakterlərini xalqda bilir. Ona görə də, müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur.

***GÜLYANƏ***

## Hacıqabulda ana və oğlunu maşın vurub



Hacıqabulda ana və oğlunu maşın vurub. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, hadisə rayonun Meyniman kəndində qeydə alınıb. "QAZ-3110" markalı avtomobil ana və onun 3 yaşlı oğlunu vurub. Nəticədə ana ölüb, uşaq isə xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

## Külli miqdarda xarici valyutanın gömrük nəzarətindən gizlin keçirilməsi cəhdinin qarşısı alınıb

Azərbaycan gömrükçüləri külli miqdarda xarici valyutanın gömrük sərhədindən bəyan etməməklə və gömrük nəzarətindən gizlətməklə keçirilməsi cəhdinin qarşısını alıblar. Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, Rusiya istiqamətindən Şimal Ərazi Baş Gömrük İdarəsinin "Xanoba" gömrük postunun nəzarət zonasına daxil olan həmin ölkə vətəndaşının idarə etdiyi "Toyota Camry" markalı avtomobilə baxış keçirilib. Baxışı zamanı nəqliyyat vasitəsinin yük yerində olan karton qutudakı şüşə bankaların arasına yerləşdirilən düyü çantasının içərisində gömrük nəzarətinə bəyan olunmayan 3 milyon Rusiya rublu aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

## Gömrük nəzarətindən gizlədilən dərman preparatları aşkarlanıb

Gömrük nəzarətindən gizlədilən dərman preparatları aşkarlanıb. Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, Şimal Ərazi Baş Gömrük İdarəsinin əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında "Xanoba" gömrük postunun idxal gömrük nəzarəti xəttində Rusiya istiqamətindən gələn Azərbaycan vətəndaşının idarə etdiyi "Mercedes Benz Vito 115 CDI" markalı avtomobil saxlanılıb və gömrük baxışı keçirilib. Bu zaman nəqliyyat vasitəsinin yük yerindəki qara polietilen paketin içərisində "Tamoksifen 20 mq" markalı 300 ədəd dərman preparatının boş qutusu, avtomobilin alt hissəsindəki ehtiyat təkərin ortasında olan boşluqda isə "Tamoksifen 20 mq" markalı 11 min 400 həb dərman preparatı aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

## Paytaxtda avtomobil qaçıran iki nəfər tutulub

Xətai Rayon Polis İdarəsinin 37-ci Polis Şöbəsinə müraciət edən Bakı şəhər sakini T.Mustafayev aprelin 23-nə keçən gecə A.Qurban küçəsindən "VAZ-2115" markalı avtomobilinin qaçırıldığını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətlə əlaqədar dərhal əməliyyat-axtarış tədbirlərinə başlanılıb. Bu barədə digər xidmət sahələrinin əməkdaşlarına da müvafiq məlumat verilib. Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakini O.İbrahimov və Hacıqabul rayon sakini X.Cavadov qısa müddətdə müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılıblar. Faktla bağlı Xətai Rayon Polis İdarəsində araşdırma aparılır.



**Təhmasib Novruzov**

## *Bizi "şirin-məzaq" edəcək arzumuz*

***Bir vaxtlar dəb düşmüşdü. Müxalifətdə olan siyasi partiyanın bir üzvünə küçədən keçən biri bir çırtma vurursa, aləm dəyirdi bir-birinə: ay aman, qoymayın, iqtidar filan siyasətçiyə təxribat törədirvə sairə və ilaxıra! Tezliklə də məlum olurdu ki, hadisə hansısa şəxsi münasibətin təzahürüdür və hakimiyyətin buna heç bir dəxli yoxdur. Hətta hadisəni törədən cinayətkar həmin hakimiyyətin hüquq-mühafizə orqanları tərəfindən həbs edilirdi, cəzasını alırdı, bundan sonra həmin hay-küy salanlar susurdular, daha doğrusu susmağa məcbur olurdular.***

Hətta o da olurdu ki, bir partiya yetkilisi narkotika faktı ilə, dələduzluqla məşğul olduğuna görə, yaxalanıb, həbs edilən kimi, yenə müxalifətin bəzi şoumenləri haray-həşir salırdılar ki, qoymayın, müxalifətçini şərləyirlər(?). Elə ki, əlahəzrət fakt qoyulurdu ortaya, yenə susmağa məcbur olurdular. Çünki faktdan min illər əvvəl olduğu kimi, bu gün də heç kəs qaça bilməz. Bir sözlə, bizim bəzi müxalifət funksionerlərinin ucuz siyasi şoularını çox görmüşük, çox izləmişik. Heç birində də görmədik ki, həqiqət üzə çıxandan sonra üzr istəyib, səhvlərini anladıqlarını nümayiş etdirsinlər. Çünki səhvi etiraf etməyin özü də bir mədəniyyətdir ki, onu da şoumen müaxalif siyasilərdə axtarmağına belə dəyməz. Bu zavalsızlar qanmaq istəmirlər ki, iqtidar bu böyüklükdə ölkənin bəzi məsələlərinin həllindən ötrü, satan olsa vaxtı da satın alar. Bu qədər gərgin işləyən bir iqtidar müxalifətin söz qəhrəmanları kimi boş-bekardılarmı ki, belə cılız işlərlə məşğul olsun?

Bir sözlə, bunların belə şoularını çox görmüşük. Amma gənc bir qıza qarşı törədilən cinayətdən də siyasi şou yaratmaq cəhdinə ilk dəfə rast gəldik. Tural adlı birinin, AXCP funksioneri Fuad Qəhrəmanlının 14 yaşlı qızına qarşı törətdiyi cinayətdən siyasi maraqlar üçün istifadə etmək cəhdi bunu bizə göstərdi. İstənilən formada bu hadisə pislənməlidir. Tural törətdiyi əməlinə görə cəzasını almalıdır və şübhəsiz alacaq da. Ən azından ona görə ki, bu yeniyetmə qız bizim xalqın övladıdır, ikincisi, bizim xalqın övladı olmasa belə, gəncdir, hələ dünyada baş verənləri anlamaq iqtidarında deyil. Günahsız gənc bir qıza qarşı törədilən cinayət təkcə hüquqi baxımdan deyil, həm də mənəvi baxımdan bağışlanmazdır. Ancaq bundan şou düzəltmək, siyasi məqsədlər üçün yararlanmaq istəyi də, eyni qaydada mənəviyyatsızlığın bariz göstəricisidir və deyərdim ki, bağışlanmazdır.

Bilmirəm, yanılıram, yoxsa bu həqiqətən belədir, amma mənim müşahidələrim onu deməyə əsas verir ki, bizim üzdəniraq müxalifət şoumenlərin içərisində eləələri var ki, hakimiyyət, vəzifə, kreslo xatirinə ən ağılagəlməz, hətta milli mentalitetimizlə bir araya sığmayan iyrənc vasitələrə də əl atmağa hazırdırlar. Başa düşmək olmur, böyük M.Ə.Sabirin təbirincə desək, bu "həlvayi-hakimiyyət" nə qədər şirin olub bunlar üçün ki, onları "şirin-məzaq" etmək naminə hər şeylərini (?..) qurban verməkdən belə çəkinmirlər? Yeniyetmə bir qızın başına gələn hadisədən belə şou yaradanlar, həmin qızımızın gələcəyi, psixoloji zədəsi, mənəviyyatına vurula bilən zərbə haqqında düşünürmü görəsən? Digər tərəfdən, demokratik cəmiyyətin ən mühüm atributlarından olan müxalifik institutunun indiki qədər ucuz, hətta iyrənc üsullarla ləkələnməsinin, ümumən Azərbaycan dövlətçiliyinə, milli mənafelərimizə vurduğu zərbənin fərqindədirlərmi bu insanabənzərlər? Axı müxalifik şər, böhtan, qarayaxma üzərində qurulmamalıdır! Yalan nə qədər ustalıqla uydurulursa uydurulsun, o ayaq tutsa da, yeriyə bilməz. Bu adi həqiqəti anlamaq istəməyənlər, bir yerdən papaqdan, şlyapadan, araqçından, panamadan, zaddan tapıb, qabaqlarına qoyub fikirləşseydilər pis olmazdı.

# Gender stratifikasiyası

***Totalitar siyasi rejimli və müvafiq surətdə istiqamətlənmiş sosial-iqtisadi institutları olan, həmçinin də totalitarizmdən demokratiyaya və bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkələrdə gender bərabərsizliyi deyilən sahələrdəki vəziyyəti optimist qiymətləndirmədən olduqca uzaqdır. İqtisadi böhran, istehsalat səviyyəsinin aşağı enməsi, işsizliyin artması, sosial proqramların ixtisarı, bütün sahələrin yöndəmsiz dövlət idarəetmə sistemindən güclü şəkildə asılı olması və sosial gərginlik mahiyyətcə patriarxat gender stratifikasiyasının rolunu bir çox şeydə dərinləşdirir. Genderin sosial qurulmuş fenomeninin başqa bir vacib aspekti qadının siyasi sahədə rolu və yeridir. Qadının faktiki olaraq siyasətin formalaşmasından və dövlət aparatının fəaliyyətinə nəzarətindən aralı düşməsi postsovet məkanında olduqca geniş yayılmış bir vəziyyət idi.***

Belə vəziyyətin səbəblərindən biri keçid cəmiyyətlərində iqtisadi, sosial və siyasi sistemlərdəki dəyişikliklərin o şəraitdə baş verməsidir ki, heç də bütün sosial qruplar öz siyasi marağını dəqiq söyləməyi və eyniləşdirməyi bacarmır. Qadına qarşı münasibətdə bu patriarxat stereotiplərin hökmranlığı və müxtəlif sosial qruplara aid olan qadınların ümumi hərəkat platforması işləmək bacarığının olmaması ilə bağlıdır. Əvvəllər, totalitarizmdə rəsmi siyasi karyera edən qadın bir qayda olaraq, nəinki digər qadınların yüksəlməsinə və irəli getməsinə kömək etmirdi, əksinə, öz sosial-demoqrafik qrupundan aralanırdı. Artıq təşəkkül tapmış həmin qadın-siyasətçi stereotipinin yeni reallıqda öz təsdiqini tapması heç də əsaslı sayıla bilməz. Müasir şəraitdə yeni tip siyasətçi qadının formalaşması üçün müəyyən zəmin yaranmaqdadır. Hər şeydən əvvəl bu, qadına siyasətə kütləvi tədbirlərdən, seçki kampaniyalarından, siyasi partiyalarda, elmi-istehsalat birliklərindəki fəaliyyətdən keçərək gəlməyə imkan verən sosial-siyasi məkanın ümumi demokratikləşmə prosesidir. Burada nəzərdə saxlamaq lazımdır ki, qadınların öz siyasi marağını dərk etməsi prosesi daha yavaş gedir, çünki qadının fikrincə daha əhəmiyyətli olan: ölkənin siyasi vəziyyəti, sosial problemlər, aşağı məvacib, əmək bazaverir. Qadının cəmiyyətdə öz həyat yolunu müstəqil seçə bilən nəinki bərabərhüquqlu, həm də bərabərdəyərli üzv olması ilə bağlı etiqad getdikcə güclənir. Dünya təcrübəsi göstərdi ki, siyasət sahəsində rəhbər vəzifə tutan qadınların sayının artması siyasi addım arsenalının strukturunda, həm siyasətdaxili, həm də xarici siyasət səhnələrində siyasi problemlərin və ziddiyyətlərin daha insanpərvər, daha mənəviyyatlı həll vasitələrinin seçilməsində pozitiv dəyişikliklərə səbəb olur. Və nəhayət, genderin sosial aşkarlığının daha bir aspektinə toxunaq. Genderin sosial təşkilinin hərtərəfli, bütöv sosial sistem olaraq cəmiyyətin digər struktur elementləri ilə qarşılıqlı əlaqəli təhlili gender stratifikasiyasının və gender bərabərsizliyinin cəmiyyətin sosial strukturunun sosial-sinfi, irqi və milli-etnik təbəqələşməsi ilə sıx bağlılığını və qarşılıqlı təsirini tam dəqiqliyi ilə izləməyə imkan verir. Unutmaq olmaz ki, məqsədi gender fenomeninin təkcə ən ümumi nöqtələrinin üzə çıxarılması olan gender probleminə yalnız ümumnəzəri yanaşma müəyyən dərəcədə həmin sosio-mədəni konstruktun bu yaxud başqa səviyyədə praktiki görünüşünü səciyyələndirən konkret forma, şərait, amil və əlaqələrdən abstraktlaşmasına yol verə bilər. Gender bərabərsizliyinin konkret tarixi şəraitdəki problemlərinin geniş tədqiqi isə sosial-sinfi, irqi, etnik və və bilavasitə gender statusu da daxil olmaqla, gender münasibətlərinin həmin subyektinin bütün sosial status və mövqe əlaqələrinin mütləq nəzərə alınmasını tələb edir.

Onları hər bir elementin bu yaxud başqa dərəcədə digərlərindən asılı olduğu vahid stratifikasiya sistemi kimi araşdırmaq lazımdır. Məsələn, sənaye kapitalizmi dövründə sosial sinfi və gender stratifikasiyası arasındakı əlaqə sinfi mənsubiyyətindən asılı olmayaraq bütün qadınların əzilməsində və eyni zamanda fəhlə sinfini təşkil edən həm kişi, həm də qadınların istismarında özünü göstərirdi. İrqi ayrı seçkiliyin mövcud olduğu ölkələrdə mahiyyəti qadının ailə üçün yaşaması haqda müddəadan ibarət olan gender ideologiyası və aşağı səviyyəli (irqi mənsubiyyət baxımından) qrupların ikinci dərəcəliliyini və etibarsızlığını əsaslandıran irqi ideologiya ağdərili kişilərin hakimliyini təsdiq edən stratifikasiya sisteminin yaranmasına yardım edirdi. Bu cür cəmiyyətdə elə vəziyyət yaranmışdı ki, bütün kişilər və bütün ağdərililər (cinsindən asılı olmayaraq) istismarçı rolunda çıxış edirdi: ağdərili kişilər həm ağdərili qadınları, həm də rənglidərili kişi və qadınları; ağdərili qadınlar rənglidərili kişi və qadınları; rənglidərili kişilər rənglidərili qadınları istismar edirdi. Qeyri-millətdən olan əhalinin - üçüncü dünya ölkələrindən və MDB-dən çıxmış insanların - məskən saldığı ölkənin vətəndaşlığına malik olmayaraq əsasən az ödənişli yerlərdə istifadə olunduğu cəmiyyətlərdəki gender və milli-etnik stratifikasiyanın kəsişində də eyni mənzərənin şahidi oluruq. Belə cəmiyyətdə stratifikasiya sistemi piramidasının zirvəsində kişilər (millətindən asılı olmayaraq) və həmin dövlətin vətəndaşları (cinsindən asılı olmayaraq) dayanır. Beləliklə, konkret sosial şəraitdə sinif, irq, millət və gender sosial bərabərsizliyin eyni zamanda mövcud olan sistemlərini formalaşdırmağa qabildir.

Genderin sosial qurulma prosesinin təhlili göstərdi ki, onun əsasında dayanan gender stratifikasiyası və gender bərabərsizliyi cəmiyyətin həyat fəaliyyətinin ayrı-ayrı sahələrində özünü bürüzə verərək bir sıra norma, dəyərlər, stereotip və göstərişləri formalaşdırır ki, onlar da öz növbəsində yayıldıqca və təsdiqini tapdıqca mövcud gender sisteminin istehsalına dəstək verir. XX yüzilin ikinci yarısında dünya ölçüsündə özünü göstərən qadın hərəkatı Azərbaycanda da özünü hiss etdirir. Qadın cəmiyyət həyatının bütün sahələrində kişilər-rında vəziyyətin pisləşməsi, uşaqların səhhəti və təhsili, ailə problemləri və sairə kimi problemlər onu üstələyir. Qadının siyasi fəaliyyətə daxil olmasına mane olan digər səbəb kişi korporativ mədəniyyətidir ki, onun əsasında şəxsi münasibətlər və qadın siyasətçilərə qarşı qabaqcadan yaranan yanlış fikir durur. Qadını qəbul etməməyin kökləri iyerarxik gender stratifikasiyasına gedib çıxır ki, ona müvafiq asılı rol ayrılırdı. Qadın siyasi karyerasında kişi və qadının müxtəlif imkan qiymətləri, qadının vaxtını məhdudlaşdıran ailə işlərinin qeyri-bərabər bölünməsi, ailədə qadının müvafiq mənəvi dəstəyinin olmaması kimi amillər dələngidici rol oynayır. Qadınlar kişilərlə müqayisədə daha az dərəcədə müstəqil seçim əsasında yaşayır və bu da onların siyasi fəallığına mənfi təsir göstərir. Buna baxmayaraq son onilliklər ərzində dünyadakı siyasi strukturda qadın təmsilçiliyinin xeyrinə mühüm dəyişikliklər baş vermişdir. Qadın özünüdərkinin yüksəlməsi, tarixi prosesdə öz rolunun başa düşülməsi təkcə kişi və qadının rolu barədə deyil, həmçinin “hakimiyyət”, “siyasət”, “demokratiya”, “liderlik” kimi anlayışların mənası barədə də təsəvvürlərin tədricən dəyişməsi ilə bir vaxtda baş lə bərabər olmaq istəyir. Müasir dövrün bu tələbi İlyas Əfəndiyevin yaradıcılığında daha dolğun, daha yüksək səviyyədə əksini tapıb. Onun yaradıcılığının əsasını təşkil edən roman, povest, pyes və hekayələrində qadın azadlığı, hüququ, qadın statusu mərkəzdə durur.

Gender stratifikasiyası - genderi sosial stratifikasiyanın əsasına çevirən, genderlər arasındakı qəbul edilmiş fərqləri isə sistematik qiymətləndirilən və qiymətləndirilmiş edən prosesdir. Genderdən başqa belə kateqoriyalar kimi sinif, irq, yaş çıxış edirlər. Coan Skott genderi digər stratifikasiya kateqoriyaları şəbəkəsində tədqiq etməyin təşəbbüskarı kimi çıxış etdi. Cins, sinif, irq və yaş gender sistemini müəyyən edən fundamental dəyişənlərdir. Bu fikirləri həm də fransız postmodernist feminist Tereza de Lauretis inkişaf etdirir. O, genderi normativ tənzimləmə prosesində kişi və ya qadın subyekti kimi təyin edən komples proses və ya texnologiya hesab edir. Buradan ikinci mülahizə yaranır: qender prosesi irq və sinif kimi digər normativ dəyişənlər ilə kəsişir və bunun gedişatında hakim sistem yaranır. Başqa sözlə, Lauretis genderi irqi, etnik, sosial fərqlər ilə əlaqədar olan cins ilə bağlı fərqlərin qurulması vasitəsilə sosial-normativ subyekti yaradan proses hesab edir. Son zamanlar genderin sosial yaradılması nəzəriyyəsi çərçivəsində müzakirə olunan daha bir termin - gender texnologiyalarıdır, yəni genderin formalaşması və müvafiq identifikasiyaların möhkəmləndirilməsi üsulları, mexanizmləri, kanallarıdır. Gender texnologiyaları genderin təşəkkülünün forma və mərhələlərini verən və reqlamentləndirən diskursiv mexanizmlərdir. Gender texnologiyaları cinsin ideoloji məhsula necə çevrildiyini göstərir. Diskursiv mexanizmdə başlıca an kimi “təmsil olunma siyasəti”, “təbliğat”, “reklam”, “ideologiya” çıxış edirlər. ...Cins ideoloji nəzarət sahəsində yerləşir və özü də çox cəətdən ideoloji məhsuldur. Feminist yönlü tədqiqatçılar cins probleminin təhlilində bioloji və sosial aspektlərdən əlavə üçüncü, simvolik və ya əslində onun mədəni aspektini də aşkar etdilər. Kişiyə və qadına məxsusluq ontoloji və qnoseoloji səviyyələrdə mədəni-simvolik sıraların elementləri kimi mövcuddur:

- kişiyə məxsus - rasional - mənəvi - ilahi - ... - mədəni; - qadına məxsus - hissiyatlı - cismani - günahlı - ... - təbii. Cinsin birinci, bioloji aspektindən fərqli olaraq, onun digər iki - sosial və mədəni-simvolik təbəqələrində aydın olmayan dəyər istiqamətlənmələri və göstərişlər vardır, və onlar elə formalaşmışlar ki, “kişiyə məxsus” və ya onunla eyniləşdirilənlər pozitiv, əhəmiyyətli və dominant, “qadına məxsus” isə neqativ, ikinci və subordinasiyalaşan hesab olunur. Bu yalnız kişinin və kişi predikatlarının cəmiyyətdə dominant olmasında təzahür etmir. Cins ilə bağlı olmayan əksər fenomenlər və anlayışlar (təbiət və mədəniyyət, həssaslıq və rasionallıq, ilahi və dünyəvi və bir çox digərləri) mövcud olan mədəni-simvolik sıra vasitəsilə “kişi” və ya “qadın” eyniləşdirilir. Beləliklə, iyerarxiya, bu qeyri-cinsi anlayış cütləri daxilində qarşılıqlı itaət yaranır. Bu zaman əksər hadisələr və anlayışlar “cinsi” (gender demək daha doğru olardı) çalar alır. Feminist nəzəriyyəçilər, “qadın” və “kişi” mədəni-simvolik mənanın nişanlandırılması üçün adətən uyğun olaraq, “femin” və “maskulin” terminlərindən istifadə edirlər. Bununla yanaşı kişi və qadın ontoloji başlanğıcılar (yəni ilkin varlıq prinsipləri) kimi digər əsas kateqoriyalar sisteminə quraşdırılması, onların öz ilkin təbii-bioloji mənasını dəyişdirir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# YAP Tərtər rayon təşkilatı akademik Zərifə xanım Əliyevanın 96-cı ildönümünü qeyd edib




Dünən YAP Tərtər rayon təşkilatının qərargahında rayon təşkilatı mərkəzi rayon xəstəxanası ərazi ilk partiya təşkilatının təşkilatçılığı ilə görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın 96-cı ildönümünə həsr olunan tədbir keçirilib.

Tədbirdə çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın misilsiz xidmətlərindən danışıb: "Zərifə xanımın fitri istedada malik novator alim, pak və nəcib insan, gözəl ana kimi yaşadığı mənalı ömür yolu hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Zərifə xanım Əliyeva gözün zədələnməsinin öyrənilməsi və profilaktikası sahəsindəki kəşflərinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademiki Averbax adına yüksək mükafata layiq görülən ilk qadın alim idi".

R.Şabanov çıxışında onu da bildirib ki, görkəmli oftalmoloq-alim, akademik, ağıllı və sədaqətli həyat yoldaşı, fədakar və qayğıkeş ana Zərifə xanım Əliyeva haqqında əbədiyyət dastanıdır: "Homerin "İliada" əsərində deyilir ki, bir yaxşı həkimin həyatı yüzlərlə və minlərlə insanın həyatına bərabərdir. Zərifə xanım Əliyeva elə bir həkim idi ki, bütün həyatını tibb elminə, xalqımızın sağlam yaşamasına və elmimizin inkişafına sərf etdi". Tədbirdə çıxış edən rayon uşaq xəstəxanasının həkim-pediatoru Arzu Əhmədova, Bəyimsarov kənd xəstəxanasının baş həkimi Mehriban Hüseynova, həkim-oftamoloq Lalə Rəhimli və başqaları çıxış edərək, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın müxtəlif göz xəstəliklərinin müalicə və profilaktikasına dair fundamental tədqiqatlarından, əldə etdiyi uğurlardan və yüksək mənəvi keyfiyyətlərindən danışıblar.

***R.HÜSEYNOVA***

# "Gələcək üçün məsuliyyətli vətəndaş olmaq"



Gənclər üçün Təhsil Mərkəzi (GTM) tərəfindən keçirilən "Gələcək üçün məsuliyyətli vətəndaş olmaq" ümumrespublika marafonu çərçivəsində növbəti tədbir Bakı Slavyan Universitetində (BSU) təşkil olunub. Tədbiri giriş sözü ilə açan BSU-nun tərbiyə işləri üzrə prorektoru, dosent Xanım Sultanova bildirib ki, belə təlimlərin keçirilməsində məqsəd ölkə rəhbərliyi tərəfindən həyata keçirilən islahatlara ictimai dəstək vermək, vətəndaş öhdəliyi və prinsiplərini gənclər ordusuna təbliğ etməkdir. "Gələcək üçün məsuliyyətli vətəndaş olmaq" ümumrespublika marafonunun təlimçisi, "İnsan mühəndisliyi" proqramının rəhbəri Rövşən Nəcəfov təlim modulunda şəxsi inkişaf üçün insan mühəndisliyi, karyera istiqamətində təcrübə və uğurun yaratdığı nümunələr, insan kapitalı, sosial və ictimai məsuliyyət məsələləri ilə bağlı iştirakçılara ətraflı məlumat verib.



Tədbirdə çıxış edən Gənclər üçün Təhsil Mərkəzinin direktoru Fəxrəddin Həsənzadə bildirib ki, marafonun məqsədi idarəetmə sisteminin vətəndaş yönümlü prinsiplər əsasında təşkil olunmasını təbliğ etməkdir. Bu istiqamətdə əsas məqsəd ölkəmizdə insan kapitalının inkişafına xidmət edən səriştəli mütəxəssislərin formalaşdırılmasıdır.

***ZÜMRÜD BAYRAMOVA***

## ELAN

**Bakı Mühəndisliyi Universitetinin pedaqoji tərcüməsi fakültəsinin II kurs tələbəsi Əskərova Aynurə İlqar qızının adına verilmiş (4-dən 2,5-dən 3) tələbə bileti itdiyi üçün etibarsız sayılır.**



# Suraxanıda akademik Zərifə Əliyevanın anadan olmasının 96-cı ildönümü silsilə tədbirlərlə qeyd edilir



***Suraxanı rayonunda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümünə həsr olunmuş silsilə tədbirlər səhiyyə, təhsil, sənaye müəssisələrində davam edir. Növbəti tədbir rayon icra hakimiyyətinin təşkilatçılığı ilə 12 nömrəli Birləşmiş şəhər Xəstəxanasında keçirilib. Tədbirdə 12 nömrəli Birləşmiş şəhər Xəstəxanasının, 24 nömrəli Şəhər poliklinikasının və 8 nömrəli Birləşmiş Uşaq Xəstəxanasının kollektivləri iştirak edib.***

Tədbiri giriş sözü ilə açan 12 nömrəli Birləşmiş şəhər Xəstəxanasının baş həkimi Bəhlul Məmmədov bildirib ki, görkəmli elm xadimi, dünya şöhrətli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümü ölkəmizdə geniş qeyd edilir, əziz xatirəsi sonsuz məhəbbətlə anılır, yad edilir.

Tədbirdə çıxış edən 24 nömrəli şəhər poliklinikasının baş həkimi Hacağa Bağırov, 8 nömrəli Birləşmiş Uşaq xəstəxanasının həkimi Mehriban Hüseynova, 12 nömrəli Birləşmiş şəhər Xəstəxanasının əməkdaşı Suqra Məlikova, Xəstəxananın həkimləri Sülhiyyə Səmədova, Fizzə Qənbərli akademik Zərifə xanım Əliyevanın zəngin elmi fəaliyyəti, tibb sahəsində qazandığı uğurlar barədə ətraflı məlumat veriblər.



Tədbirdə Suraxanı rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Nazim Fətullayev çıxış edərək qeyd edib ki, tibbin mühüm sahəsi olan oftalmologiya elmi sahəsində uzun illər dəyərli tədqiqatlar aparan, intellektual səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti, qələminin qüdrəti ilə elmin ən uca mərtəbələrini fəth edən Zərifə xanım Əliyeva görkəmli alim, müəllim, ictimai proseslərdə fəal Azərbaycan qadını kimi milli elm tarixinə sanballı möhürünü vurmuşdur.

Bildirilib ki, hər kəsin qəlbinə yol tapmağı bacaran bu nəcib insan təkcə öz həmkarları ilə yox, sadə peşə adamları, alimlər, mədəniyyət və incəsənət xadimləri ilə də asanlıqla ünsiyyət qurur, həmişə ətrafında xeyirxahlıq mühiti yaratmağa nail olurdu. Bütün bunlarla yanaşı, Zərifə xanım Əliyeva qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı, yüksək mənəviyyat sahibi olmuşdur. Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyətin - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Zərifə xanım Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin anasıdır. Oftalmoloq-alim Zərifə xanım Əliyevanın həyata keçməyən ideyalarının gerçəkləşməsində möhtərəm Prezidentimiz İlham Əliyevlə birgə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da yaxından iştirak edir.

***ZÜMRÜD BAYRAMOVA***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**